Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8
APREL
2020-ci il

№ 52 (4183)

Qiymәti
40 qәpik

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur

# QONDARMA «DQR»DƏ BUDƏFƏKİ «SEÇKİLƏRİ» RƏDD EDƏN DÖVLƏT VƏ BEYNƏLXALQ QURUMLARIN SAY ARTIMI - SƏBƏBLƏR...

■ səh. 8 ■



■ səh. 11 ■

## Hamının, hər şeyin virusla mübarizəyə səfərbər edildiyi dövr - marketlərdə 200 manat əməkhaqqı ədalətlidirmi...

Koronavirusla mübarizə dövründə Azərbaycan dövlətinin bəzi başqalarından fərqli olaraq yaşlı insanlara xüsusi humanist yanaşmasının yeni təzahürü - Əfv...
■ səh. 4 ■

Qondarma "DQR"də "seçkinin" qlobal rədd edilməsi və seçkinin "koronavirus dövründə" keçirilmə məsuliyyətsizliyi - Ermənistanı dünyada bitirən iki əsas faktor...
■ səh. 5 ■

Beynəlxalq bəyanatların "DQR"də seçkilərin hüquqi və konstitusion çərçivəsini tanımırıq" tezisi nə deməkdir...
■ səh. 8 ■

Ermənistanın işğal siyasətini davam etdirməsi mümkünsüzləşir
■ səh. 9 ■

Koronavirusla müharibədə "dövlət nə lazımsa edir, qalanlar bizim üstümüzdədir" - dövrün əsas ideyası...
■ səh. 4 ■

Azərbaycanda koronavirusla mübarizənin daha bir özəlliyi - zərər görmüş sahələrdə işləyənlər nəzərə alındı
■ səh. 14 ■

Neftin qiymətində sıçrayış gözlənilir - böyük hasilatçıların razılığı olarsa...
■ səh. 7 ■

Apteklərdə maska və spirtin qiymətini süni qaldıranlara zərbə - özümüzdə maska istehsalı necə rol oynayacaq?
■ səh. 11 ■







**Azərbaycan virusla mübarizə dövründə istehsal müəssisələrinin transformasiyasını da uğurla həyata keçirir**
■ səh. 12 ■

**Azərbaycan koronavirusun geniş vüsət aldığı ölkələrdən necə kənarda qala bildi...**
■ səh. 6 ■

**Koronavirus dolları da çökdürməyə başladı - neft bahalaşmaqda davam edərsə...**
■ səh. 13 ■

■ səh. 5 ■
"Qondarma "seçki"yə beynəlxalq ittiham Azərbaycana dəstəkdir"



■ səh. 3 ■
Azərbaycanda öz böyük səmərəsini verən koronavirusa qarşı qabaqlayıcı tədbirlərin mahiyyəti və rolu...



■ səh. 10 ■
Koronavirusla mübarizədə Azərbaycan dövlətinin üzə çıxardığı güc parametrləri...



■ səh. 10 ■
KİV əməkdaşı olmayanlara verilən saxta vəsiqələrin fəsadları...



■ səh. 12 ■
Banklar istehlak və biznes kreditlərinin verilişini niyə dayandırıb...



# Azərbaycanda 200 çarpayılıq 6 xəstəxana quraşdırılacaq



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki,hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılsın.

Nazirlər Kabinetinə isə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# Aydın Quliyev: "176 məhbusun əfvi hüquqi dövlətçilik və humanizm prinsiplərindən doğan hadisədir"




**Azərbaycanda növbəti əfv sərəncamı müstəqil dövlətçilik tarixində davamlı həyata keçirilən humanitar və hüquqi dövlət aktlarının davamı olsa da, bir sıra özəlliklərə malikdir, əvvəlkilərdən fərqlənir və təqdirəlayiqdir.**

Bunu Publika.az-a açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktor bildirib ki, hər şeydən əvvəl əfvin həyata keçirildiyi dövr xüsusi xarakterlidir və diqqət çəkir: "Eyni vaxtda həm başqa ölkələri çökdürmüş koronavirusla uğurlu mübarizə aparmaq, həm də çox zəruri sayılan sosial və humanitar aktları ardıcıl həyata keçirmək sözsüz ki, dövlətin gücünü və rəhbər tutduğu prinsiplərin böyüklüyünü göstərir. Bir daha nümayiş olunur ki, istənilən yerdə, istənilən vaxtda dövlətin dəstəyinə həyati ehtiyac hiss edən vətəndaşların dəstəklənməsi bütünlüklə ölkəyə baş ucalığı gətirən amildir. Diqqət yetirməli çox incə bir məqamdır ki, Azərbaycan dövləti dünyanın müxtəlif ölkələrinə səpələnmiş 15 minə yaxın vətəndaşını çox çətin şərtlər daxilində koronavirusla mübarizə çərçivəsində ölkəyə qaytarmağın ardınca yaşı 65-dən yuxarı olan 176 məhbusun əvf aktını həyata keçirir. Biz bir daha görürük ki, daxildə də, xarici ölkələrdə də Azərbaycan vətəndaşlarının problemlərinə həssas münasibət dövlət siyasətinin vacib prinsipi kimi icra edilir. Əfv sərəncamında diqqət çəkən amillərdən biri də odur ki, bəzi başqa ölkələr öz yaşlı vətəndaşlarını koronavirusla mübarizədə taleyin ixtiyarına atdığı halda, Azərbaycan dövləti bu yaşda insanların həm xəstəlikdən qorunması, həm də məhbus həyatından azad edilməsi kimi müstəsna humanist siyasət həyata keçirir. Daha bir vacib məqam əfv siyahısının tərtibat prinsipləri ilə bağlıdır. Yəni siyahıya adları düşən şəxslərin hansı meyarlarla dəyərləndirilməsidir.

Biz bu sərəncamda insanların yaşı ilə bərabər onların normal həyata qayıdacaqlarına olan inamı və cəmiyyətdən edilən müraciətlərin də nəzərə alındığını görürük. Başqa sözlə desək, əfv aktı zamanı həmin dustaqların fərdi xüsusiyyətləri ilə yanaşı, ictimai rəy də əsas götürülüb. 176 məhbusun əfvi hüquqi dövlətçilik və humanizm prinsiplərindən doğan hadisədir".

## Əfv olunan şəxslər ikihəftəlik istirahət mərkəzinə yerləşdirildi

**Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən, pandemiyanın respublikamızın müxtəlif bölgələrində yayılmasının müşahidə olunması və əfv edilən şəxslərin yaşayış yerlərinin 40-dək rayonu əhatə etməsi nəzərə alınaraq, onlar doğmalarının yanına getməzdən əvvəl ailə üzvlərinin də sağlamlıq durumu araşdırılacaq.**



Ədliyyə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, bu məqsədlə azad olunan şəxslər ikihəftəlik istirahət mərkəzlərinin birinə yerləşdirilib və hər cür şəraitlə, o cümlədən, qida və tibbi təminatla təchiz olunublar.

Xatırladaq ki, aprelin 6-da Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb. Dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ölkə Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların sağlamlıq vəziyyəti, cəza çəkdikləri müddətdə davranışları nəzərə alınaraq və humanizm prinsiplərinə əsaslanaraq, 176 məhkum cəzasının çəkilməmiş hissəsindən azad edilib.

Ümumilikdə, müstəqillik dövründə Azərbaycanda 66 əfv sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib.

# Azərbaycanda daha 76 nəfərdə koronavirus aşkarlandı, 1 nəfər vəfat edib

**Azərbaycan Respublikasında 76 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, bir nəfər vəfat edib.**



Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, koronavirus (COVID-19) üçün götürülən analiz nümunələri müsbət çıxmış 1953-cü il təvəllüdlü, şəkərli diabet xəstəsi olan vətəndaşın səhhətinin stabilləşdirilməsi ilə bağlı aparılan reanimasiya tədbirləri nəticə verməyib. Onun ailə üzvləri və ünsiyyətdə olduğu digər şəxslər müəyyən edilir və karantinə götürülür.

Hazırkı dövrədək ölkəmizdə 717 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilmiş, onlardan 44 nəfəri müalicə olunaraq sağalıb, 8 nəfər vəfat edib. 665 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 23 nəfərin vəziyyəti ağır, 31 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 53 300 test aparılıb.




# Əfv siyahısını Akiflə Sübahirə görə siyasiləşdirənlər...

**İndiyədək çox əfv və amnistiya aktı olub. Budəfəki onlardan biri olsa da, zamana və tərkibinə görə özəllikləri var. Məsələn, bütün dünyada koronavirusla mübarizə getdiyi bir vaxtda Azərbaycanın hüquq sistemində həm də əfv institutunun fasiləsiz fəaliyyəti təmin edilir.**

Bu fikirləri "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev öz "Facebook" səhifəsində yazıb.

Baş redaktor daha sonra bildirir: "Əfv və Amnistiya aktları ətrafında Azərbaycanda həmişə mübahisələr açılıb. Bütün cəmiyyətin indiyədək birmənalı qəbul etdiyi əfv və ya amnistiya faktı olmayıb. Bu dəfə də mübahisələr gedir və bu təbiidir.

Ancaq müəyyən dairələrin belə hadisələrə münasibəti dəyişmir və bütün hallarda, siyahıdakı kimlərisə, hansı məqamlarısa mübahisə predmetinə çevirirlər, həm də siyasiləşdirirlər.

Əfv aktının siyasiləşdirilməsi cəhdlərinə bu dəfə də rast gəlindi. Əsasən adları olan "məşhurlar" - Akif Çovdarovun, Sübahir Qurbanovun azadlığa buraxılmalarını siyasiləşdirmək cəhdləri özünü göstərir. Konkret desək, iddiaların məntiqi budur ki, Akiflə Sübahir həbsxanada ölüməðək saxlanmalı idilər və ya buraxılıblarsa, deməli, burada siyasi motivlər var. Heç bir orta mövqe tanımayan, qəti inkar və radikal son hədd baxışları...

Əlbəttə, keçmiş KQB-nin hər iki generalı adlarını çəkmədiyim bəzi başqa sabiq generallar kimi cinayətlər törədiblər və bunlara görə normal vəziyyətlərdə onlara heç bir bəraət düşünmək olmazdı. Ancaq bəzi qeyri-siyasi və humanitar xarakterli nüanslar var ki, onları nəzərə almamaq olmur. Məsələn, hər iki cinayətkar generalın yaşı 65-i ötüb, üstəlik, ağır xəstəliklərinə dair məlumatlar rəsmən təsdiqlənib. Gənc olsaydılar, bəlkə də onların buraxılma qərarı ilə bağlı mübahisələrə tam haqq vermək olardı. Lakin yaşları 65-i ötüb və bu əfv də məhz bu yaş qrupundan olan insanlara nəzərən qəbul edilib.

Digər tərəfdən, yaşları artıq 70-i ötmüş insanların azadlıqda cəmiyyət üçün böyük təhlükə mənbəyi ola biləcəklərini düşünmək doğru olmazdı. Nəhayət, törətdikləri cinayətlərin dərəcəsi də əfv üçün imkanverici əsaslar yaradır. Ən əsası isə odur ki, yaşları 70-i ötmüş xəstə adamların həbsxanada ölmələri kimi bir arzuolunmaz vəziyyətin qarşısını almaq həqiqətən doğru yoldur. Mən əminəm ki, bu gün Akiflə Sübahirin əfv edilməsini siyasi akt hesab edənlər hər iki xəstə məhbusun həbsxanada xəstəlik və qocalıqdan öldükləri təqdirdə də məsələni siyasiləşdirmək fürsətini əldən verməyəcəkdilər, yəni deyəcəkdilər ki, bu hakimiyyət xəstə və yaşlı dustaqları məhz qərəz və qisasçılıqla həbsxanada ölüm həddinə gətirdi.

Bir vaxtlar, məsələn, Əli İnsanovun buraxılmasını istəyənlər onun yaşlı və xəstə olması faktını əsas tutmurdularmı? Eyni faktlara fərqli motivlərlə yanaşmaq olmaz. Elə Əli İnsanovun özü də azadlığa bir qədər tez buraxılsaydı, dünya dağılmazdı və hadisələr də göstərdi ki, bir sıra gözləntilərin əksinə olaraq, Əli İnsanov azadlıqda ölkədəki siyasi vəziyyətə heç bir təsir edə bilmədi. Zatən, siyasi xarizması olmayan, vaxtı keçmiş siyasi lider kimi elə bir qeyri-adi xüsusiyyətləri olmayan qoca bir adam başqa nə edə bilərdi ki...

Əfv siyahısını Akiflə Sübahirə görə siyasiləşdirənlərin arqumentləri çox zəifdir. Bu yaşda və bu xəstəliklərlə onları əfv etməməyin özü qeyri-humanistlik olardı.

**Sadəcə, cinayətinin dərəcəsi imkan verən bütün yaşlı dustaqlar barədə əfv institutunun işləməsi təmin edilməlidir.Yəqin belə də olacaq. Ancaq törətdiyi cinayətin dərəcəsi əfvə uyğun gələn dustaqlardan söhbət gedir. Daha insanların namusunu ləkələyən, tamah məqsədilə ağır qətllər törədənlərdən danışmırıq. Beləlrinin hansı yaşda olması ona bəraət haqqı verməz...**

**"Azərbaycanda bu günə qədər görülmüş bütün qabaqlayıcı tədbirlər öz səmərəsini verdi". Bunu Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciətində deyib.**

## *"Sistemli tədbirlər sayəsində virusun geniş yayılması önləndi"*

Dövlət başçısı bildirib ki, qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb: "Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, eyni zamanda, keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan o saytlara girib baxa bilər, Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir".

Maraqlıdır, bəs ekspertlər bu sahədə vəziyyəti necə dəyərləndirirlər? Ölkədə koronavirusa qarşı qabaqlayıcı tədbirlərin mahiyyətini və rolunu necə izah edirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, Azərbaycanda görülən qabaqlayıcı tədbirlər kompleks xarakterli olduğu üçün, daha səmərəli nəticələrin əldə olunmasına gətirib çıxarıb: "Məsələ ondadır ki, koronavirusun

# Azərbaycanda öz böyük səmərəsini verən koronavirusa qarşı qabaqlayıcı tədbirlərin mahiyyəti və rolu...

***Vüqar Rəhimzadə:** "Ölkəmizdə görülən qabaqlayıcı tədbirlər kompleks xarakterli olduğu üçün daha səmərəli nəticələrin əldə olunmasına gətirib çıxarıb"*



ölkədə geniş yayılmasının qarşısını almaq üçün kifayət qədər geniş tədbirlər görüldü. Məktəblərin bağlanması, daha sonra parklara girişin məhdudlaşdırılması və digər bu kimi tədbirlər virusun total sürətlə yayılma təhlükəsinin qarşısını aldı. Xaricdəki ölkə vətəndaşlarının gətirilməsi, onların karantində saxlanması da xüsusi qeyd edilməlidir. Xaricdən xüsusi avadanlıqların gətirilməsi bu baxımdan mühüm rola malikdir. Bütün bunlar Azərbaycan dövlətinin öz vətəndaşlarına necə böyük diqqət etməsinin göstəricisidir. Sözügedən qabaqlayıcı tədbirlərin müstəsna əhəmiyyəti var. Onu da qeyd edim ki, bunu heç də bütün dövlətlər yaxşı təşkil edə bilmirlər. Baxın, bu gün Avropanın bir sıra dövlətləri koronavirusla mübarizədə aciz durumdadırlar.

Azərbaycanda isə sözügedən virusa yoluxanlar üçün xüsusi ixtisaslaşmış xəstəxanalar var. Qısa müddət ərzində bütün bunlara nail olmaq hər dövlətin işi deyil. Ölkəmizin uğuru həm də budur. Doğrudan da bu çox böyük işdir. Bütün bu görülən sistemli tədbirlər sayəsində virusun geniş yayılması önləndi".

***Vidadi ORDAHALLI***

# Koronavirusla mübarizə dövründə Azərbaycan dövlətinin bəzi başqalarından fərqli olaraq yaşlı insanlara xüsusi humanist yanaşmasının yeni təzahürü - Əfv...

**Aprelin 6-da Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalayıb. Dövlət başçısı bu sərəncamı dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin ona ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq imzalayıb.**



***Naqif Həmzəyev:** "Əfv sərəncamı bir daha onu nümayiş etdirdi ki, statusundan, tutduğu mövqedən asılı olmayaraq, hər bir ölkə vətəndaşı Prezident İlham Əliyevin diqqət mərkəzindən kənarda qalmır"*

***Novella Cəfəroğlu:** "Prezident humanist və lazımlı addım atıb"*

Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, yaşı 65-dən yuxarı 176 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Bu gündən isə Prezident İlham Əliyevin imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamın icrasına başlanıb.

Məhz indiki koronavirusla mübarizə dövründə Azərbaycan dövlətinin cəza çəkən yaşlı insanlara xüsusi humanist yanaşmasının yeni təzahürü nəyi söyləməyə əsas verir?

Millət vəkili Naqif Həmzəyevin sözlərinə görə, ənənəvi olaraq, ölkə Prezidenti bayram günlərində, bir sıra əlamətdar tarixlərdə əfv sərəncamları imzalayardı: "Bu dəfə fərqli bir vaxtda, ölkəmizin koronavirus pandemiyası kabusu ilə çarpışdığı vaxtda imzalanan əfv sərəncamı bir daha onu nümayiş etdirdi ki, statusundan, tutduğu mövqedən asılı olmayaraq hər bir ölkə vətəndaşı Prezident İlham Əliyevin diqqət mərkəzindən kənarda qalmır. Ulu öndər Heydər Əliyevin humanizm ənənələrini davam etdirən dövlət başçısının siyasi iradəsi və qətiyyəti nəticəsində imzalanan əfv sərəncamı nəticəsində 176 nəfər azadlığına, ailəsinə qovuşması, ailəsinə sevinc aparması ölkəmizdə həyata keçirilən humanizm siyasətinin parlaq nümunəsidir. Eyni zamanda dar gündə də, xoş gündə də vətəndaşının yanında olan, onların sevincinə də, kədərinə də şərik çıxan Prezidentn həyat amalının xalqın maddi-rifahının, həyat şəraitinin, təhlükəsizliyinin təmin edilməsi olduğunun təsdiqidir".

Hüquq müdafiəçiləri monitorinq qrupunun üzvü Novella Cəfəroğlu da Prezidentin son əfv fərmanını dəstəklədiyini bildirdi:

Prezident humanist və lazımlı addım atıb. Bu addımın atılması çox vacib idi. Yaşlı insanları həbsxanadan buraxıb öz ailələrinin içinə göndərmək zəruri idi. Prezident bu zərurəti nəzərə aldı. Ümumiyyətlə, cənab Prezidentin koronavirusla əlaqəli bütün fərman və sərəncamlarını alqışlayıram.

Çox gözəl və xalqımızın xeyirinə olan qərarlar qəbul edib. Qəbul edilən qərarları məmurlar vaxtında və normal həyata keçirsələr koronavirus bəlasından vətəndaşlar az əziyyətsiz və itkilərsiz qurtararlar. Azad olunan yaşı 65-dən yuxarı şəxslər sırasında iki nəfər Nardaran məhbusunun olması sevindiricidir. Həmin adamların da adları siyasi məhbus siyahısında vardı. Çox gözəl olardı ki, siyasi məhbus siyahılarında olan insanların hamısı azad edilsin".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirusla müharibədə "dövlət nə lazımsa edir, qalanlar bizim üstümüzdədir" - dövrün əsas ideyası...

**"Bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə, onu edib". Bunu Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciətində deyib.**

*"Təəssüflər olsun ki, bu sahədə müəyyən problemlər var, bəziləri qoyulan məhdudiyyətlərə əməl etmirlər"*

***Seyid Camal Əzimbəyli:** "Bu çətin vaxtda vətəndaşlar qoyulan tələblərə əməl etsələr, o zaman virusun yayılması dayanacaq"*

Ölkə başçısının sözlərinə görə, necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik: "Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə, onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüvvədədir. İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik".

Prezident onu da qeyd edib ki, koronavirus xəstəliyi bir çox iqtisadi və xidmət sahəsinə mənfi təsir göstərir: "Ancaq buna baxmayaraq, o sahələrdə çalışan insanların problemləri nəzərə alınıb. Mənim göstərişimlə yaradılmış dörd işçi qrupu öz işini, demək olar ki, böyük dərəcədə yekunlaşdırıb".

Bir daha bəlli oldu ki, koronavirusla mübarizədə dövlət nə mümkündürsə, onu edir. Burada əsas insanların karantin tədbirlərinə tam əməl etməsidir.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, ölkə başçısının sərgilədiyi yanaşma tamamilə reallığı əks edirir: "Həqiqətən də dövlət bu qorxunc bəlanın təsirlərini minimuma endirmək üçün nə mümkündürsə, onu edir. Deyərdim ki, bir sıra ölkələrin edə bilmədiyini dövlətimiz edir. Məlum olduğu kimi, koronavirusun iqtisadi və sosial sferaya təsirlərini minimuma endirmək üçün bir sıra paketlər hazırlanıb. Bunların




sayəsində dəyən zərər azaldılacaq. Digər tərəfdən, görülən tədbirlər çərçivəsində əhalinin aztəminatlı təbəqəsinə yardımlar ediləcək. Başqa bir tərəfdən, demək olar, ölkənin bütün tibb işçiləri səfərbər edilib. Koronavirusa yoluxan xəstələr üçün xüsusi ixtisaslaşmış xəstəxanalar ayrılıb. Karantin şəraitində saxlanılanlar üçün ən yüksək şərait yaradılıb. Virus yayılmasın deyə, əhalinin sıx təmasda olduğu metronun fəaliyyəti müvəqqəti dayandırılıb. Bundan artıq dövlət nə etməlidir? Əsas məsələ vətəndaşların karantinlə bağlı qoyulan tələblərə doğru-düzgün əməl etməsidir. Təəssüflər olsun ki, bu sahədə müəyyən problemlər var, bəziləri qoyulan məhdudiyyətlərə əməl etmirlər. Baxmayaraq ki, dəfələrlə müxtəlif formalarda xəbərdarlıqlar edilib. Fikirləşmirlər ki, bu cür davranışlarla həm özlərinin, həm də yaxınlarının həyatını təhlükəyə atırlar. Ona görə də vətəndaşlar bu kimi məqamlara son dərəcə diqqət etməlidirlər. Hesab edirəm ki, bu çətin vaxtda vətəndaşlar qoyulan tələblərə əməl etsələr, o zaman virusun yayılması dayanacaq. O üzdən, hamı bu məsələdə nizam-intizamlı olmalıdır".

***Vidadi ORDAHALLI***



# Aydın Quliyev: "Qondarma "seçki"yə beynəlxalq ittiham Azərbaycana dəstəkdir"

**"Qondarma "Dağlıq Qarabağ Respublikası"nda budəfəki saxta və qanunsuz seçkilər faktına dünya miqyasında əvvəlkilərdən fərqli reaksiyalar və dəyərləndirmələr gördük.**

Əvvəla Azərbaycana qardaş ölkə sayılan Türkiyənin, həmişəki kimi, dərhal münasibət bildirməsi tək fakt olaraq qalmadı və saxta seçkini dərhal pisləyən dövlətlər və qurumların sayı təsəvvür edilməz dərəcədə çoxaldı". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, geniş siyahını da təkrar etmədən demək lazımdır ki, əks reaksiyalar həm gecikmədən baş verdi, həm də çox geniş oldu.

Baş redaktor söyləyib ki, bu amil işğalçı ölkənin mövqelərinin və digər beynəlxalq manevr imkanlarının nə qədər daraldığını sübut etdi: "Belə ki, beynəlxalq aləm qondarma rejimdəki seçkini hüquq və konstitusion çərçivədə tanımadığını birmənalı bəyan etdi. Bu, Azərbaycan üçün prinsipial əhəmiyyət daşıyır. Eyni zamanda, beynəlxalq aləm münaqişənin yalnız Azərbaycan Konstitusiyası çərçivəsində keçirilməsinin yeganə doğru və perspektivli metodika olduğunu nümayiş etdirdi. Bununla yanaşı, Ermənistanın və separatçı qurumun rəhbərlərinin ölkəni demokratik təqdim etmək oyunlarının növbəti şəksiz iflasının şahidi olduq".

Saysız dövlət və beynəlxalq qurumun öz bəyanatları ilə separatçıların koronovirusla indiki qlobal müharibə şəraitində nə qədər qeyri-insani və qeyri-əxlaqi hərəkətə yol verdiklərini bəyan etdiyini deyən A.Quliyev qeyd edib ki, məntiqi olaraq dünyaya deyildi ki, ermənilər bəşəriyyətin ölüm-qalım mübarizəsi etdiyi dövrdə də öz təcavüzkar və ədalətsiz mövqelərindən çəkinmirlər: "Qondarma rejimdəki seçkiyə beynəlxalq ittiham reaksiyaları Azərbaycanın ərazi bütövlüyü prinsipinə növbəti birmənalı dəstəkdir. Bir daha sübut olundu ki, Azərbaycan Dağlıq Qarabağ probleminin əsl mahiyyətini dünyaya çatdırmaqda Ermənistana tam qalib gəlib və onu ifşa edib. Qondarma qurumda seçkinin qlobal olaraq tanınmaması və bu saxta seçkinin məhz virusa qarşı mübarizə dövründə keçirilməsi Ermənistanın mövqelərinə və imicinə sarsıdıcı zərbələr efekti verdi".

# Qondarma "DQR"də "seçkinin" qlobal rədd edilməsi və seçkinin "koronavirus dövründə" keçirilmə məsuliyyətsizliyi - Ermənistanı dünyada bitirən iki əsas faktor...

## *Elşən Həsənov: "Bununla Ermənistan özünü dünyaya nəyə qadir olduğunu göstərən ölkə kimi bir daha tanıda bildi"*

**Bu il martın 31-də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"lə bağlı iki vacib amil nəzərə çarpdı. Birincisi, seçkilərin beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edilməsi və onun qlobal pandemiya sayılan koronavirusun tüğyan etdiyi zamana təsadüf etməsi.**



Hətta qondarma qurumdakı "seçkilərdə" namizəd olan şəxslər belə bunun yolverilməz olduğunu bildiriblər. Onlar, eyni zamanda, tərəfdarlarını ikici turda iştirak etməməyə səsləyiblər. Bundan başqa xüsusi olaraq qeyd edilməlidir ki, müxtəlif ölkələrdən olan deputatlar da daxil olmaqla, ayrı-ayrı şəxslər tərəfindən verilmiş açıqlamalarda bütün dünyanın hazırda koronavirus pandemiyası ilə üzbəüz qaldığı bir vaxtda "seçkilər"in keçirilməsi həm də məsuliyyətsiz addım kimi dəyərləndirilib. Beləliklə, "seçkilər"ə münasibətlə dünya ictimaiyyəti bir daha rəsmi İrəvana "qırmızı kart" göstərərək, işğalın və onun nəticələrinin heç bir zaman qəbul edilməyəcəyi mesajını göndərmiş oldu. Bununla dünya həm də bir daha göstərdi ki, Qarabağ Azərbaycandır. Ermənistan "seçki", "demokratiya" kimi perspektivsiz şouları ilə bir daha dünyada özlərini biabır etmiş oldu.

Qondarma "DQR"-də "seçkinin" qlobal rədd edilməsi və seçkinin "koronavirus dövründə" keçirilmə məsuliyyətsizliyi Ermənistanı dünyada bir daha bitirən iki əsas faktor sayıla bilərmi?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hər iki faktor Ermənistanın bir daha dünya miqyasında biabır olması ilə nəticələndi: "Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində martın 31-də "prezident" və "parlament" "seçkiləri" adı altında növbəti "seçki şousu" təşkil edilib.Təcavüzkar Ermənistan və onun əlaltısı olan işğalçı rejimin bu addımı qanunsuzdur, heç bir hüquqi əsası yoxdur, demokratiya və seçki adına böyük bir ləkədir. Məhz buna görə də, dünya birliyi "seçkinin" nəticəsini tanımadı, əldə olunmayan "nəticələri" sərt tənqid etdi. Ermənistanın bu cəhdləri uzun illərdir ki, boşa çıxır. Ancaq budəfəki "seçkidə" onlar nəyə qadir olduqlarını və bütün bəşəriyyətə hansı formada problem yaratdıqlarını bir daha sübut etdilər. Dünyanın hazırda koronavirus pandemiyası ilə üzləşdiyi vaxtda, insanların həyatının təhlükə altında qalmasına baxmayaraq, Ermənistan və işğalçı rejim öz xislətinə sadiq qalaraq, hətta belə bir vəziyyətdə qanunsuz fəaliyyətini davam etdirir və "seçkilər" adlı şou keçirdi". Partiya sədri Ermənistanın bu addımı dünyanın koronavirus bəlası ilə mübarizə apardığı bir vaxtda atmasının səbəblərini onların beynəlxalq qanunlara məhəl qoymaq istəməmələri ilə izah edib:"Dünya üzrə kütləvi tədbirlər, konsert proqramları ləğv edilib, insanların bir növ qapalı ev şəraitində yaşam metoduna keçdiyi bir vaxtda belə şou baş tutursa, buna vəhşilikdən başqa nəsə ad vermək olmaz.

Bu gün məlum virusdan qorunmağın əsas yolu insanların ətraf mühitdən təcrid olunması ilə birbaşa bağlıdır. Buna isə dünyanın çox sayda ölkəsində riayət edilir. Amma vəhşilik pilləsində olan ermənilər dünyanın qəbul etdiyi sivil çağırışlara riayət etməyərək "seçkilər" keçirir. Sözsüz ki, dünyanın heç bir ölkəsi "seçkilər"in nəticələrini tanımadı. Ancaq bununla Ermənistan özünü dünyaya nəyə qadir olduğunu göstərən ölkə kimi bir daha tanıda bildi. Təbiidir ki, söhbət pis mənada tanıtmaqdan gedir. Dünyanın müxtəlif ölkələrindən ora müşahidəçilərin dəvət olunması isə xəstəliyin dünyaya yalılması üçün "yaxşı" vasitə sayıla bilərdi".

***Məhəmmədəli QƏRİBLİ***

# Çinin Cek Ma və Alibaba fondları COVID-19-la mübarizə üçün Azərbaycana tibbi humanitar yardım göndərib




**Çin Xalq Respublikasının Cek Ma Fondu və Alibaba Fondu COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycana tibbi humanitar yardım göndərib.**

"Trend"in məlumatına görə, humanitar yardıma tibbi maska, test dəsti, xüsusi qoruyucu geyim, süni tənəffüs aparatı və məsafədən yoxlayan termometrlər (teplovizor) daxildir.

Nazirlər Kabinetinin sosial məsələlər şöbəsinin səhiyyə sahəsi üzrə sektor müdiri Lalə Kazımova jurnalistlərə müsahibəsində bu humanist addımına görə Cek Ma və Alibaba fondlarına Azərbaycan hökuməti adından təşəkkür edib. "Bu pandemiyanın tezliklə bütün dünyada daha az itkilərlə bitəcəyinə ümid edirik", - deyə o əlavə edib.

Hazırda COVID-19 pandemiyası ilə qlobal səviyyədə mübarizə aparıldığı bir dövrdə Azərbaycan və Çin xalqları dostluq ənənələrinə sadiq qalaraq, bu çətin günlərdə həmrəylik nümayiş etdirir. Çinin bu yaxınlarda Azərbaycana COVID-19 infeksiyasının müəyyən olunması üçün test dəstləri hədiyyə etməsi bu dostluğun bariz nümunəsidir. Azərbaycan da Çinin epidemiya ilə mübarizə apardığı ilk günlərdən Çin xalqı ilə həmrəylik nümayiş etdirib, ona kömək məqsədilə maddi və mənəvi dəstəyini əsirgəməyib.

# Azərbaycan koronavirusun geniş vüsət aldığı ölkələrdən necə kənarda qala bildi...

**Rauf Zeyni:** *"Azərbaycanda bu pandemiyanın geniş yayılmamasının birinci səbəbi Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində həyata keçirilən önləyici tədbirlərdir"*




*"...əhalinin evdə qalması üçün karantin rejiminin tətbiq olunması, bu rejimin bir az sərtləşdirilməsi..."*

**Müasir dünyanın böyük bəlasına çevrilən koronavirus pandemiyası, sözün həqiqi mənasında, bir çox ölkəni iflic vəziyyətinə saldı, saysız insan ölümünə səbəb oldu. Bu gün dünyanın elə ölkələri var ki, pandemiya orada tüğyan edir və heç bir qüvvə ilə onu yatırtmaq mümkün deyil. Ümumiyyətlə, pandemiyadan əziyyət çəkən ölkələr var ki, orada vəziyyət nəzarətdən çıxıb.**

Azərbaycanda da koronavirus var və nəticələri də məlumdur. Amma Azərbaycanda koronavirus digər ölkələrlə müqayisədə elə də geniş yayılmayıb. Halbuki, dünyanın bir çox ölkəsində, eləcə də qonşu dövlətlərdə bu virus daha sürətlə yayılıb və xeyli insanı əhatə edib.

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışından sonra Azərbaycan xalqına müraciəti zamanı məhz bu məsələyə də diqqət çəkib: "Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, eyni zamanda, keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan o saytlara girib baxa bilər, Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya biləк. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik".

Dünyanın digər ölkələrində koronavirusun geniş vüsət aldığı bir dövrdə biz koronavirusun ölkəmizdə geniş yayılmamasına necə nail olmuşuq?

Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, buna dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər, karantin rejiminin tətbiq edilməsi, sosial izolyasiya və s. ilə nail olmuşuq. "Bu gün dünyanı çox böyük imtahana çəkmiş koronavirus qüdrətli, inkişaf etmiş dövlətlərin inkişafına, durumuna, stabilliyinə zərbə vurub və bu istiqamətdə gərginlik yaradıb. Bu zərbə indinin özündə də davam edir. Pandemiya Çin, ABŞ, İtaliya, İspaniya, Almaniya, Fransa, Hollandiya, Böyük Britaniya və digər inkişaf etmiş dövlətlərin, bir növ, nizam-intizamını pozdu. Çünki bir çox dövlət virusun pandemiya səviyyəsində olacağını gözləmirdi və ona hazır deyildi. Biz səhiyyəsinin hərtərəfli inkişafı və sağlamlıq indeksinə görə dünyada mühüm yerləri tutan ölkələrin koronavirus pandemiyasına hazır olmadığını gördük və deyərdim ki, pandemiya onları qəfil yaxaladı. Ona görə də o ölkələrdə pandemiya geniş vüsət aldı və bunun nəticəsində də həm yoluxanların, həm də ölənlərin sayı həddindən artıq çox oldu. O cümlədən, dövlətin vaxtında qərar qəbul etməməsi, cəmiyyətin buna biganə yanaşması birdən-birə pandemiyanın həmin ölkələrdə, həmçinin də qonşu İranda geniş vüsət almasına səbəb oldu. Bu baxımdan, əlbəttə, Azərbaycanda bu pandemiyanın geniş yayılmamasının birinci səbəbi Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində həyata keçirilən önləyici tədbirlərdir. Bu məsələdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri də xüsusilə qeyd olunmalıdır. Düşünürəm ki, həm cənab Prezidentin bununla bağlı imzaladığı sənədlər, həm xalqa çağırış və tövsiyələri, həm Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, qərəyi olan tədbirlərin çox çevik və operativ görülməsi, həm də sərhədlərin bağlanması, eləcə də digər aidiyyəti tədbirlərin görülməsi, əhalinin evdə qalması üçün karantin rejiminin tətbiq olunması, bu rejimin bir az sərtləşdirilməsi bu virusun ölkəmizin ərazisində geniş vüsət almasının qarşısını aldı. Amma bu vəziyyət bizdə arxayınçılıq yaratmamalıdır ki, bu məsələdə ölkəmizdə vəziyyət yaxşıdır".

R.Zeyni qeyd etdi ki, koronavirus təhlükəsi tam sovuşana qədər bütün tədbirlər davam etdirilməli, nizam-intizamla dövlətin qərarlarına əməl olunmalı, bu məsələyə ciddi yanaşmalıyıq. Onun sözlərinə görə, sona qədər mövcuq qərarlara əməl etməsək, pandemiya çox böyük fəsadlar yarada bilər. "Bu fəsadların aradan qaldırılmasına tam hazır olmalıyıq. Milli Qeyri-Hökumət Təşkilatları Forumunda koronavirusa qarşı mübarizə qərargahının, QHT-lərə Dövlət Dəstəyi Şurasının yanında ictimai qərargahın yaradılması, eyni zamanda, digər tədbirlər də məhz ictimaiyyətin bu virusun qarşısını almaqla bağlı verdiyi töhfələrdir.

Çox təəssüf ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarında media təmsilçilərinin sərbəst hərəkəti ilə bağlı məsələ QHT sahəsinə də aid edilməyib. Bunun nəticəsində də vətəndaş cəmiyyətinin təmsilçilərinin sərbəst gediş-gəlişi təmin edilməmiş qalıb. Düşünürəm ki, bunu da o qərara əlavə etməyə ehtiyac var. Çünki vətəndaş cəmiyyəti təmsilçiləri də media kimi pandemiya ilə mübarizədə öz töhfəsini vermək, ictimai faydalılığını göstərmək istəyir, ictimai nəzarət, monitorinq, maarifləndirmə kampaniyası aparmaq niyyətindədir. Hesab edirəm ki, bu bəla aradan qaldırılana qədər biz ictimai nəzarət funksiyasına yerinə yetirməliyik".

R.Zeyni, həmçinin, qeyd etdi ki, pandemiyanın ölkəmizdə geniş yayılmamasının səbəblərindən biri də insanları evdə saxlayan bir çox sosial kampaniyanın həyata keçirilməsidir. Bunun nəticəsində insanlar evdə qalıb və evdən cəmiyyətə, dövlətə faydalı olmağa çalışırlar: "Onu da qeyd edim ki, "Evdə qal, sağlam ol", "Evdə qalaq, bilgi alaq" kampaniyası yenə də ictimai qərargah tərəfindən davam etdirilir. Eyni zamanda, vətəndaş cəmiyyəti institutu da bütün vətəndaşlarımızı bu məsələdə ciddi, səbrli və təmkinli olmağa çağırır ki, biz birlikdə güclüyük, birlikdə də bu bəlaya qalib gələcəyik".

***İradə SARIYEVA***

# Neftin qiymətində sıçrayış gözlənilir - böyük hasilatçıların razılığı olarsa...

**Yaxın tezlikdə dünya neft bazarında qiymətlərlə bağlı mühüm dəyişikliklər yaşanması proqnozlaşdırılır. Məsələ burasındadır ki, OPEC+ formatından kənar hasilatçı ölkələr, o cümlədən ABŞ neft istehsalını məhdudlaşdırmağa hazır olduğunu bildirir.**

Buna qədər böyük istehsalçılardan biri olan Rusiya bildirirdi ki, hasilatı azaltmağa hazırdır, amma bir şərtlə ki, ABŞ da analoji addımlar atsın. "Bloomberg" agentliyi bildirir ki, bu halda Kreml gündəlik neft hasilatını 1,5 milyon barrel ixtisar edə bilər. Agentlik Səudiyyə Ərəbistanının da ABŞ-ın hasilatı azaltmağa razılaşmasını gözlədiyini yazır. Ağ Evin rəhbəri Donald Tramp artıq bu istiqamətdə mühüm açıqlama verib: "ABŞ, lazım gələrsə, gələcəkdə neft hasilatını azaltmaq barədə qərar qəbul edə bilər". Tramp belə bir qərar üçün müraciətin edilmədiyini də qeyd edib: "Bunun avtomatik olaraq baş verəcəyinə inanıram. Çünki bazarda, sadəcə olaraq, tələb yoxdur". İraqın neft naziri Tamer əl-Qadban bildirib ki, ABŞ neft hasilatını azaltsa, qiymətlər böyük sürətlə yüksələcək. O vurğulayıb ki, İraq qlobal bazarda neft tədarükünün azalması üçün OPEC və qeyri-OPEC ölkələri arasında yeni sazişin əldə olunması imkanlarına optimist yanaşır. İraq naziri qeyd edib ki, istənilən yeni saziş üçün əvvəlki OPEC+ sazişində iştirak etməyən ABŞ, Kanada və Norveç kimi əsas neft hasilatçılarının dəstəyi vacibdir.

İndi hesab edilir ki, ABŞ-ın prosesə müsbət yanaşması neft qiymətlərini sürətlə yüksəldəcək. Bu xəbərlər fonunda artıq Londonun ICE birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 1 dollar artaraq 34,05 dollar, Nyu-Yorkun NYMEX birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,87 dollar bahalaşaraq 26,95 dollar təşkil edib. Azərbaycan nefti də yenidən bahalaşaraq 27 dollarlıq həddə çatır. Amma bahalaşmanın davam edəcəyi, hətta ayın sonuna kimi 60 dollarlıq həddə çatacağı proqnozlaşdırılır. Bunu neft məsələləri üzrə rus ekspert İvan Danilov da xüsusi vurğulayır. O, məsələ ilə bağlı bildirir: "Donald Trampın açıqlamaları ABŞ-ın dünya neft bazarında qiymətlərdən ciddi narahat olduğunu və bahalaşma istədiyini göstərir. Bundan başqa, Tramp ABŞ-da iş yerlərinin xilası naminə neft idxalına (yəqin ki, Səudiyyə Ərəbistanı və Rusiyadan gələn neftə) qarşı rüsum tətbiq etməyə hazır olduğunu da deyib. Lakin o, eyni zamanda, hasilatın gündə 10 milyon barrel ixtisarına dair "əsrin sövdələşməsi" ehtimalını istisna etməyib.

Amerikalı liderin narahatlığını tamamilə iki faktorla əlaqələndirmək olar. Birincisi, neft bazarı iştirakçılarının konfransını tez bir zamanda təşkil etmək mümkün olmayıb. İkincisi, neft hasil edən ölkələrin az qala hamısının təmsilçiləri Vaşinqtona işarə edirlər ki, hasilatın misilsiz şəkildə azaldılması ilə bağlı ciddi bir sövdələşmə yalnız Amerika tərəfinin iştirakı ilə baş verə bilər. Cəsarətlə demək olar ki, Vaşinqton özü öz hasilatından üç və ya dörd milyon barrel "kəsəcəyini" bildirsəydi, heç bir mübahisə də olmazdı: hamı sazişlərin imzalanması və gəlirlərin hesablanması ilə məşğul olardı. Qarşılıqlı iradlara, ittihamlara və məhsuldar dialoqun qurulmasındakı mürəkkəbliklərə baxmayaraq, elə bir neft bazarı arxitekturası qurmaq mümkündür ki, orada, ABŞ da daxil olmaqla, neft hasil edən hər bir ölkə qiyməti artırmaq naminə hasilatı azaltmaqla bağlı öz üzərinə müəyyən öhdəliklər götürə biləcək. Donald Tramp Amerikanın neft şirkətlərindən hasilatı azaltmağı əmr şəklində tələb etməz və bu cür öhdəliyi öz üzərinə götürdüyünü, yəqin ki, açıq şəkildə etiraf etmək istəməz. Lakin iki vacib məqam var: Tramp üçün neftin qiymətini (sırf siyasi maraqlardan) qaldırmaq həqiqətən də çox vacibdir və onun administrasiyasının kimlərəsə hasilatla bağlı əmr vermədən lazımi nəticəni əldə etmək yolları var. İşə neft bazarının tənzimlənməsi üzrə Texas komissiyası qoşulsa, şist hasilatını iki-üç milyon barrel "kəsmək" asan olacaq. Üstəlik, ən böyük şist şirkətlərinin rəhbərlərinin özləri də Texas ştatının hökumətindən məhz bu cür tədbirləri tələb edirlər. Amerikanın neft hasilatının böyük bir hissəsi isə Meksika körfəzindəki platformaların payına düşür, federal hökumət onları sadəcə (texniki xərclər üçün müvafiq kompensasiya olmaqla) bağlaya bilər. Bu, danışıqların asan olacağı, onların mütləq uğurla bitəcəyi və xüsusilə də uğurun tezliklə əldə olunacağı anlamına gəlmir. Lakin hazırda Vaşinqtonun neft bazarının yeni kartelində iştirakda maraqlı olması artıq irəliyə doğru atılan yaxşı bir addımdır və mühüm nəticədir".




Ekspert onu da vurğulayır ki, yaxın OPEC+ görüşünün nəticələrindən asılı olmayaraq, hasilatın ciddi şəkildə ixtisarı belə neftə tələbatın azalmasını kompensasiya edə bilməyəcək. Çünki koronavirus planetin neft və neft məhsullarına tələbatını köklü şəkildə azaldıb: "Əsas məsələ isə artıq koronavirusdan sonra neft bazarlarının gələcəyidir. Epidemiya bitəcək, amma neftdən pul qazanmaq istəyi və dünya iqtisadiyyatının "qara qızıl"a olan tələbatı qalacaq. Neft hasil edən ölkələrin qlobal sazişi əldə edilsə, onlar faktiki olaraq qiymətlərə nəzarət edəcəklər. Dünya epidemiyadan belə bir yeni neft bazarı arxitekturası ilə çıxa bilsə, bu, hazırkı böhranın az sayda müsbət nəticələrindən biri hesab edilə biləcək".

**Qeyd edilənlərdən bir daha bəlli olur ki, böyük hasilatçıların razılığı ilə neft qiymətlərində sıçrayış mümkündür. Bu isə, digər hasilatçılar kimi, Azərbaycan üçün də olduqca mühümdür.**

***Tahir TAĞIYEV***

# Qondarma "DQR"də budəfəki "seçkiləri" rədd edən dövlət və beynəlxalq qurumların say artımı - səbəblər...

**2020-ci il martın 31-də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər" beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edilib və ölkəmizin suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə edilib. Əvvəlki illərdən fərqli olaraq, müxtəlif ölkələr və beynəlxalq təşkilatlar tərəfindən verilmiş bəyanatların sayı daha da artıb.**

***Qabil Hüseynli:** "Konfliktin mahiyyəti, ermənilərin yalanları tam dərk edildiyi üçün belə mənzərə yaranıb"*



Həm də ölkələrin və beynəlxalq təşkilatların mövqeyi açıq bəyanat formasında ifadə edilib. "Seçkilər"ə dair münasibət Türkiyə, Ukrayna, Gürcüstan, Bosniya və Herseqovina, Moldova, Kanada, Avstraliya, Qoşulmama Hərəkatı, Türk Şurası, Türk Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Təşkilatı-GUAM, ATƏT-in Minsk Qrupunun həmsədrləri, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, NATO, Çex Respublikası, Estoniya, Latviya, Litva, Rumıniya, Bolqarıstan, Finlandiya, Almaniya, İtaliya, Monteneqro, Böyük Britaniya, Belçika, İsveç, Xorvatiya, İran və digərləri tərəfindən ifadə edilib. Siyahıdan məlum olur ki, Türkiyədən tutmuş uzaq Kanada və Avstraliyaya qədər, Türk Şurasından tutmuş NATO-ya qədər dünya ictimaiyyətinin rəyi yekdildir. Bəyanatlarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda keçirilmiş qondarma "seçkilər" tanınmır və qanunsuz hesab olunur.

Göründüyü kimi, Dağlıq Qarabağ ərazisində qondarma qurumun keçirdiyi "seçkini" rədd edən təşkilat və dövlətlərin sayı artıb, bunu nə ilə izah etmək olar?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "seçki"dən əvvəl bir sıra dövlətlər, məsələn Pakistan, Türkiyə, İndoneziya bu "seçki"nin keçirilməməsini tələb etmişdilər: "Bu "seçkilər" ümumiyyətlə keçirilməməliydi. Saxta "seçkilər"in keçirilməsi Azərbaycanın suveren hüquqlarına qarşı qəsbdir. Heç kimə sirr deyil ki, bu bölgədə separatçılar iş başındadır. Onlar müstəqil Azərbaycan Respublikasına qarşı qiyam qaldırmış qüvvələrdir. Qeyri-qanuni "seçkilər" Azərbaycanın dünya tərəfindən tanınmış sərhədləri daxilində həyata keçirilir və qanunvericiliyə ziddir. Məlum dırnaqarası "seçkilər"in həyata keçirilməsinə BMT başda olmaqla dünyanın bir neçə ölkəsi etiraz edib. Onsuz da indiyə qədər keçirilən "seçkilər"in heç birinin nəticələri tanınmayıb. Bu günə qədər keçirilən "seçkilər"ə isə tam olaraq seçki demək də mümkün deyil. Qeyd edim ki, orada Azərbaycan icmasının nümayəndələri iştirak etməyibsə, hansısa seçkidən danışıla bilməz. İkinci məsələ isə bugünə qədərki "seçkilər"in saxta olması ilə bağlıdır. Dünyanın bir çox dövlətləri və nüfuzlu qurumları bu seçkilərin nəticəsini tanımayıb və üstəlik onların bir çoxu əvvəlcədən seçkilərin qanunsuz olduğunu da bəyan ediblər. Beləliklə, bu seçkilərin qeyri-legitim olduğu və hüquqa zidd olduğu həm də beynəlxalq təşkilatlar, xüsusilə də BMT, Qoşulmama Hərəkatı tərəfindən vurğulandı. Tanınmayan bir məkanda həmin məkanın yerləşdiyi dövlətin qanunlarına zidd olaraq keçirilən seçkilərin heç bir siyasi perspektivinin olmayacağını, yəqin ki, ermənilərin özləri də bilir".

Politoloqun sözlərinə görə, qondarma Dağlıq Qarabağ Respublikası heç bir dövlət tərəfindən tanınmayıb:"Ermənistanın bu istiqamətdə etdiyi siyasi cəhdlərin hamısı da uğursuz olub. Çünki Azərbaycan Respublikasının ərazisində baş verən bu proseslər beynəlxalq təşkilatların nəzarəti altındadır. Məsələni danışıqlar yolu ilə ATƏT-in Minsk Qrupu çərçivəsində nizama salmağa çalışırlar. Saxta "seçkiləri" birmənalı şəkildə rədd edən dövlət və təşkilatların sayının artması, reaksiyaların daha operativ və korrekt şəkildə ifadə olunması həm də Azərbaycan diplomatiyasının uğuru sayıla bilər. Çünki bu müddət ərzində biz Ermənistanın işğalçı siyasətinin əsl mahiyyətini dünya ictimaiyyətinə lazımi şəkildə çatdıra bilmişik. Konfliktin mahiyyəti, ermənilərin yalanları tam dərk edildiyi üçün belə mənzərə yaranıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Beynəlxalq bəyanatların "DQR"də seçkilərin hüquqi və konstitusion çərçivəsini tanımırıq" tezisi nə deməkdir...

**Martın 31-də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər" beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edilməklə yanaşı, səslənən bəyanatlardakı sərtlik və konkretlik diqqəti çəkir.**



***Akif Nağı:** "Qondarma qurumda bu seçkiləri keçirmək üçün nə hüquqi, nə də konstitusion haqqın olmadığı mənasını daşıyır"*

Bəyanatlarda Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda keçirilmiş qondarma "seçkilər" tanınmır və qanunsuz hesab olunur. Bununla yanaşı, qondarma "seçkilər"in keçirildiyi konstitusional və hüquqi çərçivəsinin tanınmadığı bəyan olunur. Beləliklə, "seçkilər"in heç bir hüquqi qüvvəyə malik olmadığına açıq mətnlə işarə olunur. Bildirilir ki, qondarma "seçkilər"in nəticələri davam edən danışıqlar prosesini və bölgənin statusunu əvvəlcədən müəyyənləşdirmir.

Bəyanatlarda yer alan "qondarma "seçkilər"in keçirildiyi konstitusional və hüquqi çərçivənin tanınmadığı" ilə bağlı səslənən tezis hansı mənanı ifadə edir?

Qarabağ Azadlığ Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər" ə açıqlamasında bildirdi ki, verilən reaksiyaların çoxluğu və operativliyi diqqəti çəkir:"Ancaq bir faktı deyim ki, indiyə qədər qondarma qurumda keçirilən "seçkilərin" heç biri tanınmayıb. Ermənilər bunu bilir, ancaq yenə də "seçkiləri" keçirirlər. Bununla onlar həm də qanunsuz subyekti gündəmdə saxlayırlar. Siz, biz buna münasibət göstəririk, müəyyən ölkələr bəyanatlar verirlər, nəticədə separatçı qurumun adı hallanır, onların mövcudluğu diqqətə çatdırılır. Mən istərdim ki, bəyanat verən dövlətlər və qurumlar həmin saxta "seçkilərin" keçirilməsinə mane olardılar. Buna görə Ermənistana sərt sanksiyalar tətbiq edərdilər . Çünki bütün bu oyunların arxasında birmənalı olaraq Ermənistan dayanır. Hər dəfə bəyanatlarda biz seçkilərin fərqli terminlərlə tənqid edildiyini eşidirik. Hüquq və konstitusion çərçivəsini tanımamaq seçkilərin tam qeyri-legetim olması anlamına gəlir. Yəni qondarma qurumda bu seçkiləri keçirmək üçün nə hüquqi, nə də konstitusion haqqın olmadığı mənasını daşıyır. Ancaq nə qədər sərt verilən bəyanatlar olsa da, bu bizə torpaqları, ərazimizə tam nəzarət etmək haqqını vermir. Təəssüf ki, mən həmsədr ölkələrin ayrı-ayrı bəyantına da rast gəlmədim. Onlar Minsk Qrupu çərçivəsində, həmin qurumun adından belə bəynat veriblər. Bunun ən doğru yolu budur ki, beynəlxalq təşkilatlar təzyiq edib Ermənistanı işğalçılıqdan əl çəkdirməlidirlər. Bunlar səmərə verməyəcəksə, biz müharibə ilə öz torpaqlarımızı azad etməliyik".

**QAT sədrinin sözlərinə görə, biz öz ərazimizdə separtizmin qarşısını almalıyıq:"Ordakı rejimin heç bir "seçki" keçirmək hüququ yoxdur. Onlar bunu bilirlər, sadəcə bu üsulla diqqəti özlərinə yönəldirlər. Ümumiyyətlə, belə "seçki" şoularının bitməsinə çalışılmalıdır".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın işğal siyasətini davam etdirməsi mümkünsüzləşir

**Koronavirus probleminin hələ də genişlənməkdə davam etməsi dünyanın geosiyasi və geoiqtisadi mənzərəsini də dəyişməyə doğru gedir. Artıq bu virusun yayılması fonunda dünya miqyasında bir sir çox münaqişələrin arxa plana keçməsi də özünü qabarıq şəkildə büruzə verir.**

Eyni zamanda, bunlara paralel olaraq münaqişələrin gedişində də dəyişiklik olması qaçılmaz sayılır. Qeyd edilən sıraya Dağlıq Qarabağ münaqişəsi də şamil edilir.

Ermənistanda belə hesab edilir ki, koronavirus təhdidi ölkənin çöküşünü sürətləndirdiyi və xaricdən yardımları azaltdığı üçün İrəvanın Dağlıq Qarabağ siyasətini indiki formada davam etdirməsi mümkünsüz hala gəlir. Diqqət həm də buna yönəlir ki, koronavirus qarşıdakı dövr ərzində Ermənistan kimi zəif ölkəni daha genişmiqyaslı problemlərlə üzüzə qoyacaq. Son rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı 853-ə çatıb. Ölkənin səhiyyə naziri Arsen Torosyan bildirib ki, 8 pasiyentin vəziyyəti çox ağır, 35-nin durumu ağırdır. Son sutka ərzində Ermənistanda daha 20 nəfər virusa yoluxub. Bugünədək 8 nəfər pandemiyadan ölüb. Amma virusun genişlənməsi fonunda ona qarşı mübarizə Ermənistan üçün daha ciddi çətinliklər yaradır. Digər tərəfdən, mövcud durum onsuz da zəif Ermənistan iqtisadiyyatını daha sürətlə çökdürür. Ermənistan parlamentinin eks-deputatı Miqran Akopyan da bildirir ki, mövcud durumda Ermənistan vətəndaşları fəlakətə hazırlaşmalıdır:"Böhran vulqar populist olan Nikol Paşinyanın rəhbərlik etdiyi patoloji yalançıların hakimiyyəti ələ keçirdikləri zaman baş verdi. Biz 17 yaşlı bakirə kimi aldadıldıq. O zaman böhran idi, indi fəlakətin prelüdü oynanılır. Sabah isə əsl fəlakət gələcək. Yekunda elə oldu ki, biz bir gün yuxudan qalxdıq və bildik ki, Paşinyan rejimi mülki aviasiyanı məhv edib. Bəlkə də sabah yuxudan oyananda öyrənəcəyik ki, ölkədə ümumiyyətlə buğda, benzin yoxdur, bankomatlar pul vermir, Qarabağ isə Azərbaycandadır".

Amma Ermənistanda narahatlıq predmetinə çevrilən məsələ təkcə koronavirusun ölkə daxilində tüğyan etməsi ilə bağlı deyil. Koronavirus səbəbindən Ermənsitana gələn xarici yardım və ianələrin azalması da ciddi problem kimi qəbul edilir. Erməni mediası yazır ki, Qərb ölkələrindən, ABŞ-dan gələn yardımlar azalır və bu da ölkəni əsl iqtisadi fəlakətə sürükləyir. "Armenianreport" portalı qeyd edir ki, Rusiyadakı erməni biznes və lobbisinin yardımını dayandırması artıq öz mənfi təsirlərini büruzə verir. Bu durumda rus qazının qiymətinin artımına növbəti hazırlıq işğalçı ölkə üçün daha bir ciddi zərbə sayılır. Ermənistanın "Past" nəşrində dərc olunan məqalədə də qeyd olunur ki, ölkədə qazın qiyməti mövzusu ictimaiyyətin olduqca həssas olduğu məsələlərdən biridir. Bildirilir ki, qaz tarifi ciddi sosial problemlərlə bağlıdır və onun qiymətinin qaldırılması Ermənistanda zəncirvari bahalaşmalar dalğasının başlamasına səbəb ola bilər, belə olacağı təqdirdə isə insanların maddi-iqtisadi vəziyyəti daha da çətinləşəcək:"Qazın qiymətinin qaldırılması mövzusu hələ ötən ildən başlayaraq ciddi müzakirə mövzusu olub. Paşinyan bildirmişdi ki, Rusiya tərəfi ilə bu məsələ ətrafında aparılan müzakirələr nəticəsində Ermənistanın iqtisadiyyatına zərər vurmayacaq tarif müəyyənləşdirilməsi üçün razılıq əldə olunub. Lakin sosial-iqtisadi çətinliklər probleminə qazın qiymətinin bahalaşacağını əlavə etsək, əhalinin həyat tərzinin kəskin şəkildə pisləşəcəyini, sosial gərginliyin artacağını proqnozlaşdırmaq olar. Bu da təkcə iqtisadi yox, siyasi və digər istiqamətlərdə durumu çox çətinləşdirəcək". Belə vəziyyətdə erməni ekspert Ruben Tedovsyan bildirir ki, Paşinyan hakimiyyəti daxili və xarici müstəvidə böyük problemlərlə üzləşəcək:"Xarici müstəvidə daha dəhşətli hal Qarabağ məsələsi ilə bağlıdır. Bu durumda Qarabağ siyasətini davam etdirmək çox çətin olacaq".

Digər tərəfdən Qərbin, xüsusən də ABŞ-ın Ermənistanı arxa plana atması işğalçı ölkə üçün əlavə problemlər yaradır. Bu halda diqqət daha bir maraqlı məsələyə yönəldilir. Belə ki, Ermənistanın Humanitar Yardım və Ekspertiza Mərkəzinin "Facebook" səhifəsində yer alan məlumata görə, Hələbdəki Ermənistan Baş Konsulluğunda missiya həyata keçirən qrupun nümayəndəsi Arkadi Tonoyan "Danish Refugee Council" (DRC) rəhbəri xanım Brenda Flors ilə görüşüb. Görüş zamanı DRC "Mina təhlükəsi üzrə maarifləndirmə və mina qurbanlarına dəstək" proqramları çərçivəsində mümkün əməkdaşlığı müzakirə etməyi təklif edilib.

Suriyaya missiya göndərilməsi ilə bağlı çoxlu müzakirələr olub. Burada ABŞ-ın məsələyə münasibəti yenidən diqqət mərkəzində olub. Bir daha qeyd olunub ki, ABŞ Ermənistanın bu istiqamətdə addımlarından narazıdır. O da bildirilir ki, ABŞ-ın müxtəlif rəsmilərinin bu məsələyə münasibəti haqqında çox şey deyilib və bu günlərdə Ermənistan sonrakı nəticələrin şahidi olur. Əslində, Ermənistan Əsədin başçılıq etdiyi Suriyadakı minlərlə hektar ərazini minalardan təmizləməyə gedib, amma işğal altında olan Qarabağda ərazilərin minalardan təmizlənməsi üçün Amerikadan pul istəyir.

Ekspertlər ABŞ-ın Qarabağa birbaşa yardımının dayandırılmasının bunun səbəbi ola biləcəyini dəfələrlə bəyan ediblər.

Ermənistanın Avropa Seçki Partiyası da qrupun geri çağırılmasının zəruriliyini dəfələrlə bəyan edib. Partiyanın sədri Tiqran Xzmalyanın sözlərinə görə, artıq iki ildir, demək olar ki, hər gün erməni əsgər və istehkamçıları bir an öncə Suriyadan evə gətirməyə çağırırlar:"Bu hərəkət Ermənistanı qeyri-müəyyən bir mövqedə qoyur, əslində, dəfələrlə Suriyadakı vəziyyəti, hakim rejimin mövqeyini və Əsədin mövqeyini sərt şəkildə pisləyən sivil dünya, BMT, NATO, Aİ-yə qarşı çıxmış oluruq. Rus müttəfiqləri və əslində Rusiya ordusunun komandanlığı altında fəaliyyət göstərən erməni hərbi heyəti ilə bağlı həm iqtisadi, həm də geosiyasi nüanslar var və sırf bir milli qarışıqlıq yaradır. Yəni Suriyanı çoxmillətli, çoxdinli və çox mürəkkəb vətəndaş müharibəsində tərəf seçməklə, Ermənistan Yaxın Şərqdəki erməni icmalarına öz iradəsindən asılı olaraq və ya olmayaraq təhlükə yaradır. Çox təhlükəlidir".

Xzmalyan bildirib ki, verilən bəyanat nəinki yersizdir, həm də çətin bir çağırışdır:

"Ermənistanın qlobal pandemiya şəraitində nə etməli olduğuna gəldikdə, bu, erməni hərbi heyətinin Ermənistana qaytarılmasıdır. Bütün digər bəyanatlar və hərəkətlər yalnız siyasi vəziyyəti və sivil dünyada nüfuzunu pisləşdirir". Onun sözlərinə görə, buna cavab olaraq Ermənistan ABŞ yardımının azaldılması şəklində nümayişkaranə bir addım atılmasına nail oldu:"Çünki ciddi qərarlar elan edilmədən qəbul edilir və bundan sonra özümüzü absurd bir vəziyyətə salırıq. Anlamaq vacib olan bir şey var, bir çox insan koronavirusdan sonra dünyanın eyni olmayacağını söyləsə də, az adam bunun hansı mənada olacağını başa düşür. Dünya həqiqətən dəyişəcək və bu təkcə iqtisadi və siyasi dəyişikliklər deyil, dünya daha da sərtləşəcək. Ermənistanın son illərdə aldığı dəvətnamələr - qırmızı xalçalar, ABŞ Konqresində və Senatda Ermənistanın lehinə qəbul edilmiş qətnamələr bundan sonra artıq olmayacaq. Bəşəriyyət yeni sərhədlər çəkir, sərhədin bir tərəfində qızıl milyardçı deyilən ABŞ-ın tərəfdaşı bir qrup dövlət və müttəfiqləri həm fiziki, həm iqtisadi, həm də siyasi baxımdan qorunacaq bir dövlət olacaq. Sərhədin o biri tərəfində çox çətin siyasi və iqtisadi vəziyyətdə olanlar qalacaq. Ermənistanın seçim etməsinə vaxt qalmayıb. Ya sonuncu vaqona hoppanıb minməliyik və nəzakətli, firavan dövlətlər qrupuna daxil olmalıyıq və yaxud bundan sonra bizə bu imkan verilməyəcək, çünki bunu istəyənlər çoxdur. İcazə verin, bircə misal göstərim: bu günlərdə Şimali Makedoniya və Albaniya kimi ölkələr NATO və Avropa İttifaqına üzv olmağa dəvət edildi. Bu, albanları təbrik etmək üçün bir sevincdir, amma bu gün ən azı Albaniyanın yerində ola bilmək üçün bir çox imkanlarını itirən siyasi rəhbərliyimizə ictimai bir silledir". Erməni politoloq Arkadi Vardanyanın sözlərinə görə, əvvəldən Suriyaya hərbi heyət göndərmək düzgün qərar deyildi: "Biz oğlanları ora boş yerə göndərdik, bu artıq taktiki səhvdir. İkincisi, əlbəttə ki, indi amerikalılar öz problemlərindən, oradakı böyüyən vəziyyətdən narahatdırlar, buna görə də Suriyaya bir heyət göndərdiyimizi də nəzərə alaraq, Qarabağa yardımı kəsdilər".

Vardanyan qeyd edib ki, nəzərə alınmayan digər prioritet məsələlər var:"Məsələn, Qarabağda baş tutan biabırçı "seçki"lər son bir əsrdə bizə koronavirusdan daha ölümcül olan böyük bir zərafatdır. Biz, nəticələri ağır olacaq bir siyasi və mənəvi koronavirus içindəyik". İndi bütün bunlar fonunda ABŞ-ın da Ermənistana yardımı azaltması düşmən ölkəni daha çıxılmaz vəziyyətə salır. Elə bu halda da Ermənistanın işğal siyasətini davam etdirməsi daha da çətinləşir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.***

**Azərbaycan dövlətinin COVID-19-a qarşı həyata keçirdiyi mübarizə tədbirləri davamlı xarakter alıb. Ölkəmizin bütün strukturları bu virusla mübarizə cəbhəsində məsuliyyətlə döyüşür, koronavirusun tarixə qovuşmasına nail olmaq üçün əllərindən gələni edirlər.**

# Koronavirusla mübarizədə Azərbaycan dövlətinin üzə çıxardığı güc parametrləri...



## *Elçin Mirzəbəyli: "Koronavirusla mübarizədə, üzləşdiyimiz bu çətin vəziyyətdə gücümüz həm də milli həmrəyliyimiz və birliyimizdir"*

Məlum olduğu kimi, Prezident aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib və burada bir sıra məsələlər, o cümlədən də koronavirusla bağlı dövlətimizin həyata keçirdiyi mübarizə tədbirlərindən danışıb.

"...Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə, onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüvvədədir. İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik".

Koronavirsla mübarizədə Azərbaycan dövlətinin güc parametrlərinin nələrdən ibarət olduğunu şərh edən "Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti bu məsələdə bütün resursları səfərbər edərək öz gücünü göstərə bildi. "Cənab Prezident həm də onu bildirdi ki, koronavirusla bağlı Azərbaycanın atdığı addımlar ardıcıl olub və problemin həlli istiqamətində çevik reaksiya göstərilib, önləyici tədbirlərin həyata keçirilməsi yönündə addımlar atılıb.

Dövlətimiz bu ağır vəziyyətdə özünün həm iqtisadi, həm siyasi, həm də mənəvi gücünü göstərə bildi və vətəndaşının sağlamlığı, təhlükəsizliyi naminə bütün resurslarını səfərbər etdi. Bildiyimiz kimi, bu gün Azərbaycanda 45 min test keçirilib, yoxlamalar aparılıb. Bu rəqəm isə dünyada əhalisinin sayı Azərbaycanla müqayisədə qat-qat çox olan ölkələrdən çoxdur. Məsələn, əhalisini sayı 42 milyon nəfər olan Ukraynada indiyə qədər 6 minə yaxın test keçirilib. Bu göstərici əhalisinin sayı 208 milyona yaxın olan Pakistanda 35, əhalisinin sayı 43 milyondan çox olan Argentinada 8500, əhalisinin sayı 126 milyon olan Yaponiyada 46 mindir. Bu faktın özü də sübut edir ki, Azərbaycan öz gücünü, imkanlarını səfərbər edərək, öz vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində addımlar atıb, dövlətimiz bu istiqamətdə gördüyü işlərlə də əhalisinin sayı bizdən kifayət qədər çox olan ölkələri üstələyir. Bu fakt, əslində, bir çox məqamın özünə də aydınlıq gətirir. Cənab Prezident öz çıxışında kifayət qədər ciddi məqamlara və istiqamətlərə toxundu. Bunlardan biri də milli həmrəyliyin və birliyin təmin olunması, eyni zamanda, bu həmrəyliyin, birliyin təməlində dayanan real faktorlarla bağlı məsələlərə də diqqət yetirdi. Ölkə başçısı qeyd etdi ki, milli birlik və həmrəylik nümayiş etdirdiyimiz kimi, həmçinin, nizam-intizamlı, məsuliyyətli olmalıyıq.

*"...dövlətimiz bu istiqamətdə gördüyü işlərlə də əhalisinin sayı bizdən kifayət qədər çox olan ölkələri üstələyir"*

Qeyd edim ki, bu təkcə bu gün üçün deyil, bütün dövrlər üçün əhəmiyyətə malikdir. Çünki milli həmrəylik və birlik əsasında məsuliyyət, nizam-intizam yoxdursa, o halda mütəşəkkillik də yoxdur. Mütəşəkkillik olmayan yerdə isə həmrəylik və birlik haqqında səsləndirilən fikirlər şüarçılıqdan o yana keçmir. Bu aspektdən də düşünürəm ki, Azərbaycan Prezidentinin xalqa müraciəti özü bir platforma xarakteri daşıyır, bundan sonra necə hərəkət etməli olduğumuzu göstərir. Koronavirusla mübarizədə, üzləşdiyimiz bu çətin vəziyyətdə gücümüz həm də milli həmrəyliyimiz və birliyimizdir" - deyə E.Mirzəbəyli vurğuladı.

**İradə SARIYEVA**

---

**Azərbaycan Respublikasında tətbiq olunmuş xüsusi karantin rejimi əhalinin sağlamlığının qorunması və ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumatda qeyd olunur ki, tətbiq olunmuş qaydaların, o cümlədən, hərəkət məhdudiyyətinin vətəndaşlar tərəfindən icra olunması təqdirəlayiq hal kimi qiymətləndirilir:**

*"Ölkədə tanınan ciddi kütləvi informasiya vasitələrinin siyahısı dəqiqləşdirilməlidir"*

# KİV əməkdaşı olmayanlara verilən saxta vəsiqələrin fəsadları...

## *Azər Həsrət: "Jurnalistikadan anlayışı olmayanlar jurnalist vəsiqəsindən geniş istifadə edirlər"*

"Buna baxmayaraq, xüsusi karantin rejimi qaydalarının pozulmasına cəhdlər də müşahidə olunur. Fəaliyyətinə icazə verilən bəzi hüquqi və fiziki şəxslər kənar vətəndaşların adlarını icaze.gov.az portalına daxil etməklə, həmçinin, bir sıra kütləvi informasiya vasitələri əməkdaşları olmayan ayrı-ayrı şəxslərə saxta vəsiqələr verməklə onların maneəsiz hərəkətinə şərait yaradır və xüsusi karantin rejiminin tələblərini kobud şəkildə pozurlar".

Qeyd edək ki, karantin dövründə reket jurnalistlərin saxta vəsiqədən istifadə edəcəyi ilə bağlı hallar istisna olunmurdu.

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son zamanlar jurnalist adından istifadə geniş yayılıb. Ümumiyyətlə, jurnalistikadan anlayışı olmayanlar jurnalist vəsiqəsindən geniş istifadə edirlər: "Məlumdur ki, hazırda ölkədə karantin rejimi hökm sürür. İnsanların sağlamlığı üçün "evdə qal" kampaniyası aparılır. Operativ Qərargah belə bir şəraitdə xüsusi icazə almadan jurnalist vəsiqəsi ilə onların sərbəst fəaliyyətinə icazə verir. Təəssüf ki, bəzi şəxslər bundan istifadə edirlər. Bu problemin həll olunması üçün Operativ Qərargahla Mətbuat Şurası bir araya gəlməlidir. Ölkədə tanınan ciddi kütləvi informasiya vasitələrinin siyahısı dəqiqləşdirilməlidir. Normal media fəaliyyəti ilə məşğul olan KİV-in bir qrupunun bu icazədən yararlanması təmin edilməlidir. Hesab edirəm ki, Mətbuat Şurasının üzvlərinin bütün ölkə boyu məhdudiyyətsiz hərəkətinə vəsiqəni təqdim etməklə icazə verilməlidir. Bəzən elə hallar ola bilər ki, Mətbuat Şurasının üzvləri məsələyə müdaxilə etmiş olsunlar. Ciddi KİV deyəndə biz televiziyaları, mütəmadi nəşr edilən və ölkədə ciddiliyi ilə seçilən qəzetləri, bir də onlayn fəaliyyət göstərən və cəmiyyətə təsir gücü olan saytları nəzərdə tuta bilərik. Operativ Qərargah Mətbuat Şurası ilə məsələni müzakirə etsə, bu çevrəni dəqiq müəyyənləşdirə bilər".




**Günel CƏLİLOVA**

# Hamının, hər şeyin virusla mübarizəyə səfərbər edildiyi dövr - marketlərdə 200 manat əməkhaqqı ədalətlidirmi...

**Koronavirusun ölkədə yayılmasının qarşısını almaq üçün hökumət üzərinə düşən bütün işləri həyata keçirir. Bu işlər müxtəlif formada icra edilir. O cümlədən, həyatını risqə qoyan həkimlərin sosial durumu yaxşılaşdırılır. Bir müddət əvvəl sözügedən həkimlərin maaşları artırıldı.**

*"Belə yanaşma onların sosial hüquqlarının özəl qurumlar tərəfindən açıq-aşkar pozulması deməkdir"*

Ancaq hökumətdən fərqli olaraq, özəl qurumlarda risqli sahələrdə çalışan işçilərin mənafeyini düşünən yoxdur. Məsələn, bu gün supermarketlərdə kassa arxasında gündə minlərlə insana xidmət edən şəxslər var ki, onların məvacibini hökumət artırası deyil. Bunu market sahibləri etməlidirlər. Hansı ki, indiki mövcud vəziyyətlə əlaqədar olaraq onlar da həyatlarını həkimlər qədər risqə qoyurlar. Hər gün minlərlə insan marketlərdən alış-veriş etdikdən sonra məhz həmin kassa arxasında oturan işçilərlə təmasda olur. Ancaq müşahidələr göstərir ki, əksər supermarketdə kassa arxasında çalışanlar bu işin müqabilində çox az məvacib alırlar. Bir çox marketdə onların aldığı maaş 200 manatı ötmür. Bəzilərində, ən yaxşı halda, kassa arxasında oturanların maaşı 300 manatdır. Nəzərə almaq lazımdır ki, kiçik və orta sahibkarlıq subyektləri bir sıra çətinliklərlə üzləşsələr də, supermarketlərdə vəziyyət fərqlidir. İş ondadır ki, son vaxtlar marketlərin gəliri xeyli artıb. Çünki hamı kütləvi şəkildə ərzaq alır. Bu baxımdan, supermarket sahibləri üçün kassa arxasında oturan və həyatını risqə atan işçilərin məvaciblərini artırmaq problem deyil. Ancaq təəssüflər olsun ki, market sahibləri bunu etmək barədə düşünmürlər.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, özəl qurumların risq altında olan işçilərinə qarşı bu cür biganə münasibət sərgiləmələri təəssüf doğurur: "Bu onu göstərir ki, onlar işçilərin mənafeyini yox, ancaq öz maraqlarını güdürlər. Ona görə də bu məsələ çox düşündürücüdür. Çünki nəinki supermarketlərdə, ayrı-ayrı ərzaq mağazalarında satıcılar insanlarla gündəlik təmasda olduqlarına görə risq qrupuna aiddirlər. Kim zəmanət verə bilər ki, kassa arxasında oturanlar virusa yoluxmayacaq?

***Məhərrəm Zülfüqarlı:** "Bu onu göstərir ki, supermarket sahibləri işçilərin mənafeyini yox, ancaq öz maraqlarını güdürlər"*



Ona görə də market sahibləri onların maaşını qat-qat artırmalıdırlar və mütləq onların iş rejimi nəzərə alınmalıdır. Əksər insan evdə oturduğu halda, supermarket işçiləri fəaliyyətdədirlər. Hər gün insanlara xidmət edirlər, amma bunun qarşılığında 200 manat əməkhaqqı alırlar. Əlbəttə, bu ədalətli deyil. Belə yanaşma onların sosial hüquqlarının özəl qurumlar tərəfindən açıq-aşkar pozulması deməkdir. O üzdən, supermarket sahibləri bunu nəzərə almalıdırlar. Marketin sahibi öz qazancı hesabına onların məvacibini artırmalıdır. Çünki onlar əvvəlkindən qat-qat ağır şəraitdə işləyirlər. Həmkarlar təşkilatı bu məsələni diqqətdə saxlamalıdır".

**Vidadi ORDAHALLI**

# Apteklərdə maska və spirtin qiymətini süni qaldıranlara zərbə - özümüzdə maska istehsalı necə rol oynayacaq?

**"İndi əsas məsələlərdən biri də odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar". Bunu Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edərkən deyib.**

*"Tibbi maska qıtlığından bəzi işbazlar sui-istifadə edərək, süni qiymət artımına yol vermişdilər, lakin bu problem artıq Prezidentin qayğısı nəticəsində həll olundu"*

Prezident qeyd edib ki, bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər: "Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək".

Ekspertlər də hesab edirlər ki, hazırkı şəraitdə insanlara dəstək olmaq əvəzinə, onlardan gəlir əldə etmək istəyənlər cəzalandırılmalıdır.

"Vəfa" Sosial-İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, koronavirusla əlaqədar ölkədə maska qıtlığı yaşanırdı. Vətəndaşların bu tələbatının qarşılanması üçün Bakı Tekstil Fabriki MMC-nin qısa müddətdə tibbi maskaların istehsalına başlaması çox müsbət addımdır: "Danılmaz faktdır ki, tibbi maska qıtlığından bəzi işbazlar sui-istifadə edərək, süni qiymət artımına yol vermişdilər. Lakin bu problem artıq Prezidentin qayğısı nəticəsində həll olundu. İnanıram ki, bundan sonra vətəndaşlarımızın koronavirusa qarşı tibbi maskalara olan tələbatı tam ödəniləcək.

Ölkə başçısının dediyi kimi, koronavirus pandemiyası iqtisadi və xidmət sahələrinə mənfi təsir göstərməkdədir. Prezident açılışda bir çox vacib məqama toxunub. Həm fərdi sahibkarlara dəyən ziyan, həm də tələbələrin problemləri, işsizlərə verilən müavinətlərin həcmi barədə ətraflı çıxış edib. Hesab edirəm ki, belə bir məqamda dövlət başçısının xalqa görülən işlər barədə məlumat verməsi müsbət haldır. Digər vacib məsələ belə bir vaxtda bəzi işbazların sui-istifadə hallarına yol verməsi ilə bağlıdır. Prezident bu məsələdə xəbərdarlıq edərək süni qiymət artımına yol verənlərin ciddi cəzalandırılmasını söyləyib. Hesab edirəm ki, koronavirus pandemiyası dövründə hər birimiz dövlət başçımızın yanında olmalı, ona dəstək nümayiş etdirməliyik. Bir insan digərlərinin xəstəliyi üzərindən pul qazanmağı düşünürsə, o şəxs ağır şəkildə cəzalandırılmalıdır. Ona görə də ölkə başçısı bu situasiyaya xüsusi olaraq toxundu".

***Fatimə Hacıbəyli:** "Bir insan digərlərinin xəstəliyi üzərindən pul qazanmağı düşünürsə..."*




**Günel CƏLİLOVA**

# Azərbaycan virusla mübarizə dövründə istehsal müəssisələrinin transformasiyasını da uğurla həyata keçirir

**"Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bir daha onu göstərir ki, Azərbaycanda yaradılmış infrastruktur imkan verir, biz qısa müddət ərzində lazım olan istehsalat sahələrinin təşkilində uğur qazana bilək". Bunu Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsi ilə tanışlıqdan sonra Azərbaycan xalqına müraciətində deyib.**

*"İnfrastruktur və texniki təhlükəsizlik nöqteyi-nəzərdən bu müəssisələr istehsal profilini dəyişməklə..."*

## *Fuad İbrahimov: "Ölkə iqtisadiyyatında transformasiya prosesi özünü çox uğurla göstərir"*




Ölkə başçısının sözlərinə görə, sözügedən Sənaye Parkı onun təşəbbüsü ilə yaradılıb: "Artıq burada bir çox müəssisələr fəaliyyət göstərir. Bu müəssisələr bizim qeyri-neft iqtisadiyyatımıza da böyük töhfə verir. Eyni zamanda, mövcud kadr potensialı, sahibkarlar sinfinin inkişafı, dövlət və özəl sektorun tərəfdaşlığı, daim dövlət tərəfindən özəl sektora göstərilən dəstək - həm siyasi, həm maddi dəstək, güzəştli kreditlərin verilməsi, bütün bu amillər yeni vəziyyətə gətirib çıxardı ki, biz vətəndaşlara lazım olan vasitələri qısa müddət ərzində operativ şəkildə istehsal edək və bazara təqdim edək. Mən onu bir daha qeyd etmək istəyirəm ki, hətta inkişaf etmiş ölkələrdə bu gün maska qıtlığı var. Bizdə alınmış yeni avadanlıq, - bu avadanlığın ikinci xəttinin də gətirilməsi nəzərdə tutulur, - imkan verir ki, avtomatlaşdırılmış rejimdə böyük həcmdə, böyük sayda maskalar istehsal olunsun".

Bəzən elə şərait yaranır ki, hansısa məhsul istehsalı zamanı istehsalın təyinatını dəyişmək zərurəti yaranır. Məsələn, traktor istehsal edən zavod müharibə zamanı profilini dəyişərək tank istehsal edir. Bu zaman istehsal sahəsində transformasiya prosesi gedir. Bütün bu deyilənlərlə yanaşı, ümumən koronavirus dövründə Azərbaycan iqtisadiyyatı özünün transformasiya qabiliyyətini necə göstərdi?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun fikrincə, ölkə iqtisadiyyatında transformasiya prosesi özünü çox uğurla göstərir: "Son dövrlər Azərbaycanda qeyri-neft sektoru ilə bağlı kifayət qədər müasir müəssisələr açılıb. Həmin müəssisələrin əksəriyyəti müasir dövrün tələblərinə cavab verdiyi üçün, bizdə istehsalın transformasiyası alınır.

Yəni bir məhsul istehsalından digərinə keçmək mümkün olur. İnfrastruktur və texniki təhlükəsizlik nöqteyi-nəzərdən bu müəssisələr istehsal profilini dəyişməklə, transformasiya nəticəsində digər məhsullar istehsal edə bilirlər.

Bu da tələb olunan əmtəələrin istehsalına şərait yaradır. Belə hallar iqtisadiyyatın elastikliyinə, digər tərəfdən də lazım olduğu anda istehsal profilini dəyişməyə şərait yaradır. Ona görə də hesab edirəm ki, bu, ölkə iqtisadiyyatının uğurudur. Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bunun əyani sübutudur".

***Vidadi ORDAHALLI***

# Banklar istehlak və biznes kreditlərinin verilişini niyə dayandırıb...

**Son günlər Azərbaycanda fəaliyyət göstərən bankların istehlak və biznes kreditlərinin verilişini dayandırması haqqında məlumat yayılıb. Müştərilər hansı banka müraciət ediblərsə, onlara ayın sonunadək kredit verilməsinin dayandırılması cavabı verilib.**

*"...qorxurlar vətəndaşlar milli valyutanı dollara dəyişərlər"*

## *Əkrəm Həsənov: "Bankların kredit vermək üçün imkanları da var, sadəcə, indiki halda, kredit vermək istəmirlər"*



Məsələ ilə bağlı Mərkəzi Bankın mətbuat xidmətindən cavab olaraq bildirilib ki, koronavirus (COVID-19) pandemiyası və bundan irəli gələrək qlobal əmtəə bazarlarında baş verən kəskin dalğalanmalar, digər ölkələrdə olduğu kimi, Azərbaycan iqtisadiyyatı üçün də ciddi təhdidlər yaratmaqdadır: "Pandemiyanın sahibkarlıq subyektlərinin və əhalinin kredit qabiliyyətinə təsir ehtimalları nəzərə alınmaqla, bir sıra banklar tərəfindən müxtəlif bank xidmətləri üzrə müştərilər üçün optimallaşdırıcı tədbirlər təklif olunur, kredit ödənişləri üzrə güzəşt imkanları nəzərdən keçirilir. Hazırda banklar ölkədə pandemiyanın fəsadları ilə mübarizə aparılmasında ümumi səylərə həmrəylik nümayiş etdirərək, Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr edirlər.

Banklar bütün bank xidmətlərini, o cümlədən, əmanət qəbulunu, istehlak və biznes kreditləşməsini davam etdirməkdədirlər. Bununla belə, mövcud situasiya və potensial risqlər nəzərə alınaraq, banklar tərəfindən öz kredit siyasətlərinə əsasən yeni kreditlərin verilməsində, habelə əmanət qəbulunda daha ehtiyatlı davranış nümayiş etdirilə bilər. Sözügedən meyllər əksər dünya ölkəsinin maliyyə-bank sistemində də müşahidə olunmaqdadır".

Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov isə bildirdi ki, kredit verilişi son aylar doğrudan da aşağı düşüb: "Çünki karantin rejimidir.

Hər kəsin başı koronavirusla mübarizəyə qarışıb. Amma Mərkəzi Bank kreditlərin verilməsini dayandıra bilməz. Bankların kredit vermək üçün imkanları da var. Sadəcə, banklar, indiki halda, kredit vermək istəmirlər. Qorxurlar ki, vətəndaşlar milli valyutanı dollara dəyişərlər".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, banklar ianə fəaliyyəti ilə məşğul ola bilməzlər: "Bu, qanuna ziddir. Qanuna görə, banklar ancaq faizlə kredit verməlidirlər".**

***Günel CƏLİLOVA***

# Koronavirus dolları da çökdürməyə başladı - neft bahalaşmaqda davam edərsə...

**Koronavirus pandemiyası, əvvəldən də proqnozlaşdırıldığı kimi, qlobal iqtisadiyyata mənfi rakursdan təsir göstərməyə davam edir. Proseslərin inkişaf axarı bu təhdidin dünya maliyyə bazarlarına da təsirinin böyük olacağını açıqlayır. Elə bu təsir fonunda dollarla bağlı vəziyyətin də əvvəlki dövrdən fərqli olması proqnozlaşdırılır.**

Söhbət dolların mümkün böyük çöküşündən gedir. ABŞ iqtisadiyyatında yaranan vəziyyət dolların dünya miqyasında, o cümlədən də Azərbaycanda kəskin ucuzlaşma ehtimalının yüksək olduğunu deməyə əsas verir.

Bütün bu qeyd edilənlərin kökündə duran başlıca səbəb dünya, o cümlədən ABŞ iqtisadiyyatının pandemiyadan sarsılmağa doğru getməsidir. Asiya İnkişaf Bankının hesablamalarına əsasən, koronavirus pandemiyasının qlobal zərəri virusun yayılma miqyasından asılı olaraq 4,1 trilyon dollar və ya qlobal ÜDM-in təxminən 5%-i qədər ola bilər. Pandemiyanın miqyası az olarsa, qlobal zərər 2 trilyon dollar və ya qlobal ÜDM-in 2,3%-i qədər ola bilər. Yaranmış durumda hökumətlər, mərkəzi banklar stimullaşdırma və pul siyasətini asanlaşdırmaq üçün 5 trilyon dollardan çox girov qoyaraq, zərəri azaltmaq üçün addım atır. Amma görünən budur ki, qeyd edilənlər hələ də yetərli deyil. Bu durumda ən böyük zərər görən tərəflərdən birinin də məhz ABŞ olması proqnozlaşdırılır. Elə bu da dolların taleyinə ciddi surətdə təsir edəcək. "Moody's" beynəlxalq reytinq agentliyi bildirir ki, yeni növ koronavirusun yayılması ilə mübarizə çərçivəsində ABŞ ştatlarının və federal hökumətin tətbiq etdiyi məhdudlaşdırıcı tədbirlər Amerika iqtisadiyyatının azı 29%-ni iflic edib. Qeyd olunur ki, ABŞ-ın 50 ştatından 41-də sələhiyyətlilər sakinlərin hərəkətinə məhdudiyyətlər qoyub, ictimai iaşə obyektlərini, universitetləri, kinoteatrları, gözəllik salonlarını, parkları və qeyri-ərzaq mağazalarını bağlayıb. "Moody's"in qiymətləndirməsinə görə, bu tədbirlər bu ilin mart ayının ilk həftəsi ilə müqayisədə ABŞ ÜDM-nin gündə təxminən 29% azalmasına səbəb olub. Kaliforniya ştatında bu göstəricinin azalması artıq gündə 31,5%-ə (2,8 milyard ABŞ dolları), ABŞ ÜDM-nin təxminən 70%-nin payına düşdüyü digər 15 ştatda isə 40%-ə (12,5 milyard ABŞ dolları) çatır. "Moody's"in məlumatına görə, daha otuz ştatın və ölkə paytaxtının itkisi gündə 4,9 milyard dollara çatır.

Reytinq agentliyinin aparıcı analitiki Mark Zandi bu tempdə enişin bu ilin ikinci rübü boyu davam edəcəyinə inanmır:"Əks təqdirdə, ABŞ-ın illik ÜDM-i təxminən 75% azalacaq. Hesab edirəm ki, yaya qədər məhdudlaşdırıcı tədbirlər tədricən aradan qaldırılacaq və ikinci rübdə ÜDM-də nisbətən mülayim azalma olacaq". Amma virus təhdidi artarsa, agentliyin ABŞ iqtisadiyyatı ilə bağlı proqnozları tamamilə real görünür. ABŞ iqtisadiyyatında belə geriləmə, öz növbəsində, dollara etimadı azaldır və onun ucuzlaşmasına əlavə təkan verir. Qeyd edək ki, ABŞ koronavirusa yoluxma hallarının sayına görə dünyada birinci yerə çıxıb. Bu durumda iqtisadi zərərlərin artımı dollara da təsirsiz ötüşmür. Artıq dünyada bir çox mərkəzi banklar yenidən dollar ehtiyatını qızılla əvəzləməyə başlayıb. Belə vəziyyət dünya birjalarında dollar həcminin artımına və beləliklə də dəyər itirməsinə səbəb olur. Digər tərəfdən, ABŞ Federal Ehtiyat Sisteminin (FES) son addımı da dolların həcmini artırır. Belə ki, FES-in balans hesabı koronavirusun iqtisadi təsirlərini azaltmaq və maliyyə bazarlarında təkrar sabitlik yaratmaq üçün xəzinə istiqrazları və ipoteka ilə təmin edilmiş qiymətli kağızların alımları ilə 5,81 trilyon dollara yüksəlib. Bu durumda FES-in cəmi aktivləri təkcə ötən həftə 557 milyard dollar məbləğində artıb. Bundan başqa, FES-in bütün dünyada dollara olan tələbi ödəmək üçün xarici mərkəzi banklarla birlikdə qurduğu likvidlik svop əməliyyatları 142,5 milyard dollar artaraq 348,5 milyard dollara çatıb. Bütün bunlar qlobal bazarlarda dollar kütləsini sürətlə artırır. Təbii ki, bu da dolların məzənnəsinə təsirsiz ötüşmür.

Yaranmış durumda ölkəmizdə də dolların məzənnəsində dəyişikliklər proqnozlaşdırılır. Əvvəla, proses göstərir ki, əhalinin dollara tələbi azalıb. Bu durumda ilin sonuna kimi Dövlət Neft Fondu 2020-ci il üzrə büdcə xərclərinin büdcədə təsdiq olunan səviyyədə icra olunması üçün təxminən 4 milyard dollar həcmində vəsaitin hərraclar vasitəsilə satışa çıxarılmasına hazırlaşır. Bu isə dövriyyədə dolların xüsusi çəkisinin artması deməkdir. Nəzərə alaq ki, bunlar idxalın dı əhəmiyyətli dərəcədə azaldığı bir vaxta baş verir.

**Idxalın azalması da dollar tələbini xeyli aşağı salıb. Məhz bütün bunlar fonunda hökumətin müdaxiləsi olmasa, dolların əhəmiyyətli dərəcədə ucuzlaşması qaçılmaz sayılır. Amma dünya miqyasında dolların ucuzlaşması ABŞ iqtisadiyyatında baş verənlər səbəbindən dəyər itirməkdə davam etsə, Azərbaycanda da hökumətin prosesə müdaxiləsinə ehtiyac qalmayacaq. Digər tərəfdən, son günlərdə neft bazarında yenidən bahalaşma da vəziyyətə təsirsiz ştüşmür. Hesab edilir ki, bahalaşma davam edərsə, dolların Azərbaycanda da əhəmiyyətli dərəcədə dəyər itirməsi qaçılmaz olacaq.**




***Ramil QULİYEV***

# Azərbaycanda koronavirusla mübarizənin daha bir özəlliyi - zərər görmüş sahələrdə işləyənlər nəzərə alındı

**Dünyanın digər ölkələri kimi, koronavirus Azərbaycana təsirsiz ötüşməyib. Bu virusun ölkəmizə də daxil olması nəticəsində bir sıra sahələr, o cümlədən, sahibkarlıq subyektləri ziyan çəkib. Bildiyimiz kimi, dövlət koronavirusa görə əziyyət çəkən işçilərin mənafeyini nəzərə alaraq bir sıra dəstək proqramları hazırladı.**

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında bu məsələdən də bəhs edib.

Prezident bildirib ki, biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb: "Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən, fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən, tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!"



***Natiq Cəfərli:** "Koronavirusa görə əziyyət çəkən sahələrin işçilərinin mənafelərinin nəzərə alınması çox yaxşı haldır"*

***Ruslan Atakişiyev:** "...koronavirusdan əziyyət çəkən sahələrdə çalışan 600 mindən çox insanın sosial rifahı və mənafeyinin qorunmasına xidmət edən əsas amillərdən biridir"*

Mövzunu şərh edən tanınmış iqtisadçı Natiq Cəfərli bizimlə söhbətində qeyd etdi ki, əslində, tədbirlər planında pozitiv tədbirlər də yer alıb. "Sahibkarlıq subyektləri ilə bağlı qərarda kifayət qədər həm vergi güzəştləri, həm kredit faizləri ilə bağlı güzəştlər var" - deyə N.Cəfərli bildirdi. Onun sözlərinə görə, sahibkar 15 faizlə biznes krediti götürübsə, bu aylar ərzində yarısı dövlət tərəfindən ödəniləcək, yerdə qalanını isə iş adamları ödəməlidir. O bildirdi ki, muzdla çalışanlarla da bağlı qərar verilib və ölkədə qeyri-dövlət sektorunda 700 mindən çox adam çalışır: "Bunun 300 mininə dövlət tərəfindən aylıq 356 manat olmaqla ödənişlər olacaq. Burada söhbət rəsmi qeydiyyatı olan, müqavilə ilə işləyən insanlardan gedir. Orada da 400 minə yaxın insan qalır. Onların da bəziləri qapalı olmayan sahələrdə çalışırlar, bu şəxslərin maaşlarının verilməsində problem olmayacaq. Ərzaq dükanlarıdır, supermarketlərdir, apteklərdir, bunların hazırda dövriyyələri, qazancları daha da artıb, onların işçilərinə maaşlar veriləcək. Amma rəsmən qapadılmayan sahələr də var ki, onların dövriyyəsi karantinə görə xeyli düşüb. Kimyəvi təmizləmə, mebel sexləri, avtomobil təmiri sahələri var ki, onlar rəsmən qapadılmayıb, amma karantin rejiminə görə insanlar çölə çıxmır deyə, onların dövriyyəsi və qazancları da yoxdur. Bu gün koronavirusa görə əziyyət çəkən sahələrin işçilərinin mənafelərinin nəzərə alınması çox yaxşı haldır. Hesab edirəm ki, hazırda qapalı olmayan və fəaliyyət göstərən, lakin dövriyyəsi, gəliri olmayan sahələrdə işləyənlərin də mənafeyinin nəzərə alınmasına, müəyyən düzənləmələrə, dəstəyə ehtiyac var. Amma, ümumilikdə götürdükdə biznes üçün vergi və kredit güzəştləri nəzərdə tutulub. Bununla da biznesə dəstək həyata keçiriləcək" - deyə N.Cəfərli vurğuladı.

Digər tanınmış iqtisadçı Ruslan Atakişiyevin fikrincə, dövlətin bu kəsimin mənafeyinin müdafiəsi istiqamətində atdığı addımlar çox müsbətdir: "Koronavirus pandemiyasından ziyan görmüş sahələrin işçilərinin zərər çəkməsi dedikdə biz əsasən üç istiqaməti nəzərə almalıyıq. Birincisi, rəsmi şəkildə işləyən şəffaf müəssisələr var ki, onların əməkdaşları nəzərdə tutulur. Yəni bu istiqamətdə 12-yə qədər iqtisadi sahə müəyyənləşdirilib ki, bunlar koronavirus pandemiyası dövründə daha çox mənfi təsirə məruz qalıb və zərər görüblər. Həmin müəssisələrdə orta hesabla 300 minə yaxın əməkdaş çalışır ki, onların işdən çıxarılmaması, iş yerlərinin saxlanması üçün dövlət bu işçilərin əməkhaqqının bir hissəsinə yardım göstərəcək, qalan hissəsini isə sahibkar ödəyəcək. Bu, məsələnin birinci tərəfi. İkinci isə VÖEN-lə işləyən fiziki şəxslər var, onlar müəssisədir, xidməti müqavilə və işləyirlər, bu əsasla işçi götürürlər. Koronavirus pandemiyasından zərər çəkən həmin fiziki şəxslərdən də 300 mininə maliyyə dəstəyi nəzərdə tutulur.

**Üçüncüsü, elə işçilər var ki, onların heç bir müqaviləsi yoxdur, rəsmi şəkildə heç bir yerdə işləmir və VÖEN də açmayıblar, amma onlar əmək qabiliyyətinə malik olduqları halda koronavirus pandemiyası dövründə işsiz duruma düşüblər. Bu qrupa aid olan vətəndaşlara da məşğulluq mərkəzlərinin xəttilə birdəfəlik 190 manat yardım edilməsi də bura aiddir. Bu, koronavirusdan əziyyət çəkən sahələrdə çalışan 600 mindən çox insanın sosial rifahı və mənafeyinin qorunmasına xidmət edən əsas amillərdən biridir".**

*İradə SARIYEVA*



# Koronavirusla mübarizə fonunda yaradılacaq 50 min ictimai iş yeri əhali üçün nə deməkdir...

***Könül Nuriyeva:** "2 ay müddətinə 50 min vətəndaşımız üçün sosial və ictimai iş yerləri yaradılacaq"*

**Bu ilin aprel-may aylarında Azərbaycanda 50 min ictimai iş yerinin yaradılması nəzərdə tutulub.**

Bu, Nazirlər Kabinetinin təsdiq etdiyi, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planında öz əksini tapıb.

Məqsəd işsiz vətəndaşların müvəqqəti məşğulluğunun təmin edilməsidir. Bunun üçün 30 milyon manat ayrılıb. Onu da qeyd edək ki, hər ictimai işə görə ayda 300 manat əməkhaqqı veriləcək.

Koronavirusla mübarizə dövründə yeni iş yerlərinin yaradılmasının əhəmiyyəti barəsində danışan iqtisadçı ekspert Könül Nuriyeva bildirdi ki, 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğu təmin ediləcək və işsiz kimi qeydiyyata alınan 200 min nəfərə iki ay ərzində 190 manat birdəfəlik ödəmə veriləcək. "2 ay müddətinə 50 min vətəndaşımız üçün sosial və ictimai iş yerləri yaradılacaq. Bu məqsədlə büdcədən 30 milyon manat vəsait ayrılıb. Özünüməşğulluq proqramı 11 min nəfəri əhatə edəcək və işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinə 20 min nəfər düşəcək".

***Günel CƏLİLOVA***

**Azərbaycana bu günə qədər tibbi maskalar idxal olunurdu. Yeni açılan müəssisənin fəaliyyəti ilə idxaldan asılılığımız bitəcək və biz özümüzü tibbi maska ilə təmin edəcəyik.**

# Azərbaycan istehsalı maskalar bir həftə sonra satışa çıxarılacaq



"Trend"in məlumatına görə, bunu İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinə press-tur zamanı jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, iki həftə ərzində sahibkar tərəfindən müəssisə üçün lazımi avadanlıq və xammal alınıb: "Burada insanların qorunması və gigiyenik vəziyyətin lazımi səviyyədə saxlanması üçün tibbi spirtlər və dezinfeksiya vasitələri də istehsal olunur".

N.Səfərov qeyd edib ki, "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin investisiya xərcləri 3,9 milyon manat təşkil edir: "Tibbi maskaların qablaşdırılması üçün xüsusi qutular da yerli istehsaldır. Onlar Balaxanı Sənaye Parkının rezidenti olan müəssisədə hazırlanır. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. İstehsal prosesi üçnövbəlidir".

"Bakı Tekstil Fabriki" MMC-nin təsisçisi Səkinə Babayeva isə yerli maskaların artıq bir həftə sonra apteklərə satışa çıxarılacağını deyib. Onun sözlərinə görə, istehsal prosesində artıq son quraşdırma işləri aparılır: "Yaxın iki gün ərzində Azərbaycan istehsalı olan maskaların satış qiyməti açıqlanacaq. Müəssisənin ilk 15 gün ərzindəki fəaliyyəti ilə maska tələbatının gündəlik 30-40 faizinin ödənilməsi nəzərdə tutulur".

Qeyd edək ki, "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib və ona Sənaye Parkının rezidenti statusu verilib. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq gündəlik istehsal 200-250 min tibbi maskaya çatdırılacaq. Müəssisənin məhsulları, ilkin olaraq, daxili bazarda tələbatı ödəməyə yönəldiləcək.



# "8103" qısa nömrəsinə 90 dəfə SMS göndərən ata və azyaşlı oğlu müəyyən edilib

**Qısa müddətdə yaradılan "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" vasitəsi olan 8103 qısa nömrəsinə ayrı-ayrı vətəndaşlar tərəfindən bəzi hallarda lüzumsuz SMS-lər göndərilir.**

Bu halların qarşısının alınması üçün daxili işlər orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

Belə ki, daxil olmuş sonuncu müraciətdə mobil operatorlardan birinin abunəçisinin 8103 nömrəsinə icazə almaq üçün 90-na yaxın sms göndərdiyi barədə məlumat verilib. Həmin abonentin şəxsiyyəti dəqiqləşdirilən zaman onun Nərimanov rayonunda müvəqqəti məskunlaşan Ağdam sakini İlham Bəhramov olduğu müəyyən edilib. Həmin şəxs Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanıb. İ.Bəhramov ifadəsində 8103 xidmətinə ona məxsus mobil telefondan xəbəri olmadan azyaşlı oğlu, 5-ci sinif şagirdi U.Bəhramlı tərəfindən SMS-lər göndərildiyini bildirib.

Məsuliyyətsiz davrandığına və xüsusi karantin rejimi qaydalarını pozduğuna görə Nərimanov RPİ 18-ci Polis Şöbəsində İlham Bəhramov barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə tədbir görülüb və o, cərimə edilib.

Qeyd edək ki, qeyri-ciddi, aidiyyəti olmayan SMS-lərin 8103 yönləndirilməsi yaşayış yerini zəruri olaraq tərk etmək istəyən vətəndaşlara vaxtında cavab mesajının göndərilməsinə maneə törədir. DİN vətəndaşlardan belə hallara yol verməməyi tələb edərək bildirir ki, əks halda bu cür davranış karantin rejimi tələblərinin pozulması kimi qiymətləndiriləcək və həmin şəxs barəsində ciddi cəza tədbirləri görüləcək.

№ 52 (4183) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

8 APREL 2020-ci il

www.baki-xeber.com



# Qədim qitənin qalıqları tapıldı

**Alimlər Kanadanın şimalında Kimberlit vadisində fraqmentləri Atlantik okean üzrə səpələnmiş ən qədim qitənin qalıqlarını aşkar ediblər.**

"Ted.az" bildirir ki, ən qədim kontinental yer qabığının - Şimali Atlantik platformanın fraqmenti Baffin adasında, Kanadanın materik hissəsi və Qrenlandiya adası arasında aşkar edilib. Tapıntı haqqında geoloqlar "Journal of Petrology"də nəşr olunmuş məqalədə məlumat veriblər. Qiymətləndirmələrə görə, Şimali Atlantik platforması təxminən 150 milyon il əvvəl hissələrə parçalanıb. Onun qırıntıları indiyədək Qrenlandiya, Şotlandiya və Labrador adasında tapılıb.

Tapılmış fraqment sayəsində alimlər Şimali Atlantik platformasının onların güman etdikləri ölçüdən 10% daha böyük olduğunu müəyyən ediblər.

## Süni intellekt fikirləri mətnə köçürəcək

**Mütəxəssislər fikirləri mətnə köçürə bilən yeni süni intellekt texnologiyası üzərində işləyirlər. "Ted.az" bildirir ki, araşdırmanı Kaliforniya Universitetinin mütəxəssisləri aparıblar.**

Onlara bu işdə beyinlərinə elektrod implantları yerləşdirilmiş 4 insan yardım edib. İnsanlardan 50 fərqli cümləni təkrarlamaq xahiş olunub.

Əldə edilən məlumatlar alqoritmə köçürülüb və sistem alqoritmi səslərlə qarşılaşdırıqdan sonra mətnə köçürməyə başlayıb.

İlk dəfə əldə edilən cümlələr heç bir məna ifadə etməsə də, sonradan sistem təkmilləşdirilib. Araşdırma komandası sistem vasitəsilə danışmayan insanların da fikirlərini mətnə köçürməyə çalışır.

## Rezin əlcəklərdən istifadə qaydası...

**Virusdan qorunmaq üçün əsasən rezin əlcəklərdən istifadə edilir. Mütəxəssislər əlcəklərin qoruyucu olmadığını və bəzi hallarda düzgün istifadə edilmədiyi təqdirdə virusu daha çox yaya biləcəyini deyirlər. "Milli.Az" bildirir ki, həkim-terapevt Solmaz Musayeva bu barədə AZƏRTAC-a deyib:**

"Gün ərzində əlcəklərlə gəzmək düzgün deyil, çünki belə olanda əlcəklərin köməkdən çox ziyanı olur. Əlcəklər əldə olanda arxayınçılıq yaradır və çox vaxt əlləri yumadan çirkli əlcəklərlə hər şeyə toxunurlar. Belə olanda həm dəri havasız qalır, həm də əlcəklər yoluxmaya səbəb olur". Lakin bununla yanaşı, əlcəklə olanda özünü rahat və təhlükəsiz hiss edənlər də var.

Ona görə də əlcəyi geyinərkən və çıxararkən müəyyən qaydalara əməl etmək tövsiyə olunur: "Əslində, təbii əlcəklər istifadə olunmazdan əvvəl əllər təmiz yuyulmalı, tibbi məhlullarla təmizlənməli, əlcəklər kağız dəsmalla tam qurudulmalı və əllərdən nəmlik tam çəkiləndən sonra əlcəklər geyinilməlidir.

Əlcəkləri soyunarkən arxadan önə doğru içəri üzünə çevirərək səliqəli şəkildə çıxarıb bükülərək ağzı bağlı zibil qabına atılmalıdır". Həkimlər virusa yoluxmamaq üçün vacib olan şərtlərdən ən əsasının təbii gigiyenaya və qidalanmaya diqqət yetirməyin lazım olduğunu bildirirlər.

## Elan

Qarabağ müharibəsi veteranı Ağakişiyev Bəhruz Fəti oğluna məxsus veteran vəsiqəsi qeyri-müəyyən şəraitdə itirildiyi üçün etibarsız sayılır.

## "Nar" şəbəkəsi ölkəni fasiləsiz və yüksəksürətli internetlə təmin edir

**"Nar" karantin müddətində abunəçilərinin artan telekommunikasiya tələblərinə cavab vermək üçün şəbəkə dayanıqlılığını tam şəkildə təmin edir.**

Mobil operator həm paytaxt, həm də region sakinlərinin mobil rabitə tələblərini tam ödəmək, eyni zamanda, onları yüksəksürətli, kəsintisiz internetlə təmin etmək məqsədilə bütün baza stansiyaları üzrə şəbəkə tutumunu əhəmiyyətli dərəcədə genişləndirib. Mobil rabitə şəbəkəsinin stabilliyini təmin etmək və şəbəkə istifadəçilərinə dəstək olmaq məqsədilə 24/7 rejimində şəbəkə üzrə təhlillər və optimizasiya işləri həyata keçirilir, texniki heyət isə gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Bildirək ki, abunəçilər "Nar"ın sərfəli şərtlərlə təqdim etdiyi müxtəlif internet paketləri ilə indi daha çox ünsiyyətdə olurlar. Belə ki, əvvəlki dövrlə müqayisədə karantin müddətində "Nar" şəbəkəsində internetdən istifadənin həcmi 20% artıb.

Hazırda "Nar"ın 4G və 4/4.5G texnologiyalı baza stansiyaları ölkənin 54 regionunda əhalini yüksəksürətli internet və zəng xidmətləri ilə təmin edirlər. Operator ötən il ərzində 4G/4.5G baza stansiyalarının coğrafi əhatə dairəsini 245%, ölkə əhalisi üzrə əhatə dairəsini isə 80% artırmağa nail olub.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2.3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.





**Qoç** - Gün xoş tanışlıqlar, maraqlı söhbətlər, şəxsi həyatınızda yaxşı dəyişikliklər vəd edir. İnsanları yaxşı başa düşür, yeni tanışlarınızı düzgün qiymətləndirir, məhz lazım olan adamlarla maraqlanırsınız.



**Buğa** - Ətrafınızdakılarla münasibətlərdə maraqlı təzad yaranır: insan sizə nə qədər yaxındırsa, onunla dil tapmaq bir o qədər çətindir. Təsadüfi tanışlarla isə çox tez qaynayıb-qarışırsınız.



**Əkizlər** - Ailə üzvlərinizlə münaqişələr gözlənilir: yaxınlarınız sizi başa düşmürlər. Sizin qanınız qaralır və neqativ emosiyalarınızı büruzə verirsiniz. Gənc Əkizlər düşünülməmiş hərəkətlərə meyllidirlər.



**Xərçəng** - Bu gün xırda anlaşılmazlıq və fikir ayrılıqları olacaq. Bunlar hamısı işləməyinizə, məqsədə doğru getməyinizə və planlarınızı reallaşdırmağa ciddi mane olur. Siz başqalarının işinə yarınmağa çalışır və unudursunuz ki, sizin tələbləriniz, ideya və gözləntiləriniz də diqqət tələb edir.



**Şir** - Günün necə olması sizin özünüzlə razılıqda olub-olmamağınızdan asılıdır. Əgər əzginsinizsə, özünüzə inamınız yoxdursa, tənbəlliyə meylli olacaq, zəifliklərinizin əsarətinə düşəcəksiniz.



**Qız** - Mürəkkəb və riskli layihələrə girişməyin. Vacib problemlərin həllini ləngidin, bundansa cari işlərə diqqətinizi yönəldin. Sizi nəyəsə təhrik edirlər? Vecinizə də almayın: hər kəs közü öz qabağına çəkmək istəyir, sizdən isə istifadə etməyə çalışırlar.



**Tərəzi** - Tərəzilər günü sakit keçirəcəklər: planlarını həyata keçirməkdə onlara heç kim və heç nə mane ola bilməyəcək. Yalnız səhhətinizə diqqət yetirin, vaxtında tədbir görməsəniz, yüngül soyuqdəymə ciddi fəsadlar törədə bilər.



**Əqrəb** - Sizin üçün dəyərli insanlarla (həm işdə, həm də şəxsi münasibətiniz olanlarla) münasibətlər gərginləşə bilər. Qadın qohumlarınızla ciddi fikir ayrılıqları gözlənilir. Maliyyə və daşınmaz əmlakla bağlı məsələləri müzakirə etməyə çalışmayın.



**Oxatan** - Diplomatik fəaliyyət üçün yaxşı gündür. Danışıqları virtuozcasına aparmaq, düşmən tərəfləri barışdırmaq, onları hətta bir-birilə dostlaşdırmaq sizin əlinizdə su içmək kimi asandır.



**Oğlaq** - Mövcüd işgüzar əlaqələr möhkəmlənir. Əməkdaşlığa mane olan fikir ayrılıqlarını aradan qaldırmaq olar. Həyatın bütün sferalarında dəyişikliklər etmək mümkündür. Bir çoxları çətin şəraitdən çıxış yolları axtarıb tapırlar.



**Dolça** - Günün birinci yarısı çox sakit keçir, vacib qərarları məhz bu zaman vermək lazımdır. Bu dövrdə cavabını tapa bilmədiyiniz suallar uzun müddət havadan asılı qalacaq və işinizə mane olacaq.



**Balıqlar** - Peşəkar cəbhədə isə işlər o qədər də ürəkaçan deyil. Ciddiləşə bilmirsiniz, sadəcə, yığılıb qalan problemləri həll etmək istəmirsiniz. Cari işləri isə barmaqarası görürsünüz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Redmi brendi öz ilk smart qolbağını təqdim etdi

**"Xiaomi" şirkətinin Redmi brendi Mi Fan Festival tədbiri çərçivəsində özünün ilk smart qolbaq modelini təqdim etdi.**

Brendin ilk smart qolbağı Redmi Band adını əldə edib. Beləliklə, Redmi Band smart qolbağı 1.08 düym rəngli ekran və ürək döyüntüsünü təyin edən ötürücü ilə təchiz olunub. Smart qolbağın şarj prosesi USB girişi vasitəsilə reallaşdırılır. Bununla yanaşı, Redmi Band 5 növ idmanı təyin edir və istifadəçinin yuxu prosesinin monitorinqini reallaşdırır.

Smart qolbağın çalışma müddətinə gəldikdə isə şirkətin verdiyi məlumata əsasən, bir dəfə şarj olunandan sonra Redmi Band 14 gün ərzində çalışa bilər. Qeyd etmək lazımdır ki, Redmi brendinin ilk smart qolbaq modelində NFC modul yoxdur. Redmi Band 9 aprel tarixində 14$ qiymətində satışa çıxacaq. Müqayisə üçün qeyd etmək lazımdır ki, Xiaomi Mi Band 4 fitnes qolbağı Çində 21$-a satılır.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.